# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 77 (3401) Cümə axşamı / 16-22 sentyabr 2021-ci il Qiyməti 40 qəpik


MÜSAHİB

## Neftin büdcə qiyməti özünü doğruldacaqmı?



**İlham Şaban,**
Neft Araşdırmaları Mərkəzinin rəhbəri

***Xəbər verildiyi kimi, 2022-ci ilin dövlət büdcəsində neftinin 1 barelinin qiyməti 45 dollar götürülüb. Hazırda Azərbaycan neftinin dünya bazarında qiyməti 70 dollardan yuxarı təklif olunur. 2021-ci ilin büdcə sənədində isə neftin 1 barelinin qiyməti 40 dollardan götürülmüşdü. Maraqlıdır, gələn il üçün neftin qiymətinin 45 dollarla nəzərdə tutulması hansı səbəblərlə bağlıdır? Ümumiyyətlə, hazırda bazarda vəziyyət necədir? Neftin qiymətində ciddi dəyişiklik gözlənilirmi? Mövzu ətrafında hafta.az-ın müsahibi Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şabandır.***

Hökumətin neftin qiyməti ilə bağlı addımı özünü sığortalamaqdan irəli gəlir

Səh. 5

# 1226 şəhid ailəsi və qazinin kredit borcu bağlanıb

***Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsinin başlandığı tarixi günə - 27 sentyabra sayılı günlər qalıb. Müharibədən sonra dövlətin əsas məqsədlərindən biri şəhid ailələri və qazilərin problemlərini həll etmək oldu. Çox keçmədi ki, bu məqsədlə "YAŞAT" Fondu yaradıldı. Hafta.az-ın müsahibi fondun rəhbəri - Qarabağ qazisi Elvin Hüseynovdur...***






***"YAŞAT" Fondu tərəfindən təhsil istiqaməti üzrə yeni tədris ilində 67 şəhid övladına dəstək göstərilib. Fonddan hafta.az-a verilən məlumata görə, 7 özəl təhsil müəssisəsi ilə yaradılmış əməkdaşlıq çərçivəsində imtahanda uğurlu nəticə əldə etmiş 37 şəhid övladı özəl təhsil müəssisələrində ödənişsiz kvota əsasında təhsil alacaq. Eyni zamanda, 7 şəhid övladı ödənişsiz kvota əsasında bağça və məktəbəqədər təhsil müəssisəsinə qəbul olunub. Bununla yanaşı özəl təhsil müəssisələrində ödənişli təhsil alacaq 30 şagirdin təhsil haqqı Fond tərəfindən qarşılanacaq.***

***"YAŞAT" Fondu tərəfindən reallaşdırılan xüsusi layihə çərçivəsində yeni tədris ilinin başlanması ilə əlaqədar bütün şəhidlərimizin məktəbli övladlarına dərs ləvazimatlarından ibarət hədiyyə qutuları çatdırılıb. Hər bir hədiyyə qutusunda bir illik müddət üçün məktəbli ləvazimatları yer alıb. Respublika ərazisini əhatə edən layihə çərçivəsində 800-dən çox hədiyyə qutusu hazırlanıb və aidiyyəti üzrə çatdırılıb. Bundan başqa, təhsil, peşə hazırlığı və yaradıcı potensialın inkişafı xərcləri istiqaməti üzrə bu günədək ali təhsil müəssisələrində təhsil alan 18 şəxsin təhsil haqqı Fond tərəfindən, 19 şəxsin təhsil haqqı isə Fondun təşəbbüsü ilə təhsil müəssisələri tərəfindən qarşılanıb. Xatırladaq ki, 2021-2022-ci dərs ilində Bakı şəhəri və digər regionlar üzrə 83-ü oğlan, 77-i isə qız olmaqla, ümumilikdə 160 şəhid övladı birinci sinifə başlayır.***

***- Elvin bəy, müharibədən sonra əsas yük sizin üzərinizə düşdü. Bu müddət ərzində YAŞAT Fondu hansı işləri görüb və gələcək planlarınız nələrdir?***

- Bilirsiniz ki, YAŞAT Fondu 8 dekabr 2020-ci ildə cənab Prezidentin 1203 nömrəli fərmanı əsasında yaradıldı. Yaradıldığı andan etibarən fond əməli fəaliyyətə başladı və struktur formalaşdırıldı. Ümumilikdə isə 69 qrup təsis edildi. Hansı ki, bu qruplardan biri təcili müraciətlər olduğu yerə, digərləri isə



**Elvin Hüseynov,**
"YAŞAT" Fondunun rəhbəri - Qarabağ qazisi

regionlara yönləndirildi. Beləcə, şəhid ailələrinin müraciətləri yerindəcə dinlənib həlli üçün lazımi addımlar atıldı. Bu günə qədər 2908 şəhid ailə üzvü, 3997 qazi ziyarət olunub. 8846 şəxsin müraciəti öhtəliyə götürülüb və onların 1898-i artıq öz həllini tapıb. Bu saya görə reallaşdırılmış ödəniş 37 milyon manata yaxın vəsaitdir. Nəzərinizə çatdıraq ki, bir adamın 2-3 müraciəti də olurdu.

***- Bəs bu günə qədər neçə qazi müalicə olunması üçün xarici ölkəyə göndərilib?***

- YAŞAT Fondu həm ölkə daxilində, həm də xaricdə qazilərin müalicəsini təmin edir. Bu zaman müalicəsi ölkəmizdə mümkün olmayan qazilərimiz səhiyyə qurumlarından alınan rəydən sonra xaricə göndərilir. Belə şəxslərin sayı 131 nəfərdir. 84 nəfər qazimiz öz sağlamlığına qovuşaraq vətənə qayıdıb. 47 nəfərin müalicəsi isə Türkiyə Respublikasında uğurla davam etdirilir.

***- Fond tərəfindən neçə şəhid ailəsi və qazinin kredit borcu bağlanıb?***

- Hazırda 1226 şəxsin kredit borcu bağlanıb və bununla bağlı 4 milyondan çox vəsait xərclənib.

***- Sizdə belə bir statistika varmı ki, ölümündən sonra neçə şəhid övladı dünyaya gəlib?***

- Bəli, bu say 100-dən artıqdır. YAŞAT Fondu 27 sentyabr tarixindən sonra doğulan və heç bir zaman öz atalarını görə bilməyəcək şəhid övladlarının ilkin xərclərinin ödənilməsi üçün analarının hesabına 1000 manat vəsait köçürdü. Daha sonra isə bankda depozit hesab açılaraq hər bir körpənin adına 5000 manat vəsait köçürüldü. Şəxs 18 yaşına çatdıqdan sonra artan faizlə hesablanan həmin məbləği götürüb istifadə edə bilər.

***- Bu gün rəhbəri olduğunuz fondun balansında nə qədər vəsait var?***

- YAŞAT Fondunun vəsaitlərinə baxdıqda deyə bilərəm ki, bu günə qədər 62562815 manat 83 qəpik vəsait daxil olub. Xərclənən vəsait isə 37 milyon manata yaxındır. Fondun saytına nəzər saldıqda xərclənən vəsaitin hansı istiqamətlərdə və nə qədər istifadə edildiyini görmək mümkündür.

***- Fonda vəsait toplamaq üçün xarici ölkələrdə marafonlar təşkil etmək nəzərdə tutulurmu?***

- YAŞAT Fondu diaspor komitəsi ilə bərabər marafon təşkil etmişdi. Həmin marafona 60-dan çox ölkədə yaşayan soydaşlarımız cəlb edilmişdilər. Məqsəd zəfər tariximizi öz canı-qanı bahasına yazanlara dəstək olmaq idi. Bu sahədə 1 milyon manatdan artıq vəsait toplandı. Düşünürəm ki, bu, kifayət qədər ciddi məbləğdir. Gələcəkdə də bu istiqamətdə növbəti addımlar atıla bilər.

***- Elvin bəy, artıq şəhid ailələri və qazilərin problemləri ilə bağlı xeyli iş görülüb. Bundan sonra fəaliyyət istiqamətinizdə hər hansısa dəyişiklik gözlənilirmi?***

- Hazırda fondun 4 fəaliyyət istiqaməti var. Bütün istiqamətlərdə indi də işlər aparılır. Dəyişiklik isə müzakirə mövzusu deyil. Hələ görüləcək kifayət qədər işlər var.

**Üzərinə düşən ali vəzifəni uğurla həyata keçirən fondun fəaliyyəti ilə tanış olduq. Görüləcək işlər isə hələ qarşıdadır. Bu ölkədə ən firavan həyatı şəhid ailələri yaşamalı, ən yaxşı təhsili bizə qələbəni öz sağlamlığı ilə bəxş edən şəxslərin övladları almalıdır.**

***✍ Banu***

TARİX



**Akif Aşırlı,**
"Şərq" qəzetinin baş redaktoru

■ Cənubi Qafqazdakı indiki vəziyyət 100 il əvvəlki dönəmi xatırladır

■ Ümumiyyətlə, çar Rusiyası dönəmində hərbdə iştirak edən və sonradan geri dönən milli qüvvələrimizin sayı 1100 nəfərdən yuxarı deyildi

■ Türk Birliyi ideyasının təməlində çox böyük missiya Türkiyə və Azərbaycanın üzərinə düşür

Səh. 3

GÜNÜN FOTOSU...




Çörəyin qiyməti bahalaşdı...

GÜNÜN SİTATI

"Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti cənab İlham Əliyevin Ermənistana uzatdıqları barış əlinə, barışa, sabitliyə nail olmaq üçün edilən təklifə qarşılıq verilməsi əhəmiyyətlidir"



**Hulusi Akar,**
Türkiyənin milli müdafiə naziri

KARİKATURA



Üç qardaş - 2021...

## "İrana cavab olaraq İsraildə səfirliyimiz açılmalıdır"

**Asim Mollazadə,**
Milli Məclisin deputatı

Biz İranın burada erməni terroruna verdiyi dəstəyi beynəlxalq təşkilatlara bildirməliyik...

Səh. 3

STATİSTİKA



**■ 2021-2022-ci tədris ilində respublikanın ümumi təhsil müəssisələrində ümumilikdə 1 589 829 şagirdin təhsil alacağı proqnozlaşdırılır. Ümumtəhsil məktəblərinin I sinfində 158 608, IX sinfində 132 881, XI sinfində isə 91 538 şagird təhsil alacaq.**

Hazırda respublikada 309 ibtidai məktəb, 3 333 tam orta məktəb, 775 ümumi orta məktəb, 13 xüsusi tipli ümumi orta məktəb və 5 əyani-qiyabi (axşam) tam orta məktəb, o cümlədən 64 məktəb-lisey, 54 lisey, 15 gimnaziya və 16 inteqrasiya təlimli internat tipli gimnaziya, 1 inteqrasiya təlimli internat məktəbi olmaqla, ümumilikdə 4 435 məktəb fəaliyyət göstərir.



Səh. 7

## Maska taxmamağa görə cərimələr silinə bilərmi

## PREZİDENTİN İŞ GÜNÜ



**Prezident İlham Əliyev Ucar rayonunun Müsüslü-Təzə Şilyan-Bərgüşad-Bağban-Yuxarı Şilyan-Boyat-Qazyan avtomobil yolunun tikintisinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.**

Sərəncama əsasən iyirmi doqquz min nəfər əhalinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirən Müsüslü-Təzə Şilyan-Bərgüşad-Bağban-Yuxarı Şilyan-Boyat-Qazyan avtomobil yolunun tikintisinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.1.14-cü yarımbəndində göstərilmiş vəsaitin 8 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

Maliyyə Nazirliyinə bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etmək, Nazirlər Kabinetinə isə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasının Belçika Krallığında fövqəladə və səlahiyyətli səfiri V.İ.Sadıqovun eyni zamanda Azərbaycan Respublikasının Avropa İttifaqı yanında Nümayəndəliyinin başçısı təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Respublikasının Belçika Krallığında fövqəladə və səlahiyyətli səfiri Vaqif İsmayıl oğlu Sadıqov eyni zamanda Azərbaycan Respublikasının Avropa İttifaqı (Aİ) yanında Nümayəndəliyinin başçısı təyin edilib.

## Prezident "Buzovna-1" yarımstansiyasının açılışında iştirak edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev paytaxtın Xəzər rayonunda yeni tikilən 110/35/10 kilovoltluq "Buzovna-1" yarımstansiyasının açılışında iştirak edib.**

"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov Prezident İlham Əliyevə yarımstansiyada görülən işlər barədə məlumat verib. Yarımstansiya məsafədən idarə olunan SCADA dispetçer sisteminə qoşulub, ən müasir qurğular və avtomatika sistemi ilə təchiz edilib. Ümumilikdə, "Azərişıq" ASC tərəfindən yeni inşa olunan qapalı tipli yarımstansiyalarda texniki və texnoloji yeniliklərə xüsusi diqqət verilir. Paytaxtın digər ərazilərində 110, 35 və 0,4 kilovoltluq ötürücü xətlər kabellə yeraltı borular və tunellər vasitəsilə çəkilib ki, bunların istismar müddəti baxımından etibarlılığı 2-3 dəfə çoxdur. Prezident İlham Əliyev "Buzovna-1" yarımstansiyasını işə salıb.

Dövlət başçısına işğaldan azad olunmuş ərazilərdə "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən "Ağıllı şəbəkə konsepsiyası" əsasında görülmüş işlər barədə də məlumat verilib. Bildirilib ki, Şuşa şəhəri və Suqovuşan qəsəbəsinin elektrik təchizatının təmin edilməsində ilk dəfə müasir tipli mühafizəli və izolyasiyalı kabel xətti, paylayıcı şəbəkə modeli tətbiq olunub. Ümumilikdə, işğaldan azad edilmiş ərazilərin elektrik enerjisi ilə təchizatında innovativ texnologiyaların tətbiqi uğurla davam etdirilir. Belə ki, müasir tip mühafizəli və izolyasiyalı kabel xətlərinin texniki-iqtisadi səmərəliyini artırmaq məqsədilə yeni fiber-optik kanalla təchiz edilmiş mühafizəli kabellərin tətbiqi nəzərdə tutulub. Bununla da həm elektrik enerjisi, həm də keyfiyyətli internet şəbəkəsinin ötürülməsi mümkündür. Beləliklə, "ağıllı şəhər" və "ağıllı kənd" layihələrinin həyata keçirilməsində mühüm əhəmiyyət kəsb edən yüksəksürətli internet şəbəkəsinin yaradılması üçün əlavə infrastrukturun qurulmasına ehtiyac qalmır və iqtisadi səmərəlilik göstəriciləri yüksəlir. Digər tərəfdən hər bir abonentin bir kabel xətti ilə həm elektrik enerjisi, həm də dayanıqlı və yüksəksürətli optik kanalla internet və rabitə xətlərinə çıxışı olacaq. Dövlət başçısı görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verib.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# "Üç qardaş - 2021"

## Gündəm



***Sentyabrın 12-də Bakıda Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlı qüvvələrinin nümayəndələrinin iştirakı ilə "Üç qardaş - 2021" beynəlxalq təliminin açılışına həsr olunan təntənəli mərasim keçirilib. Müdafiə Nazirliyindən hafta.az-a verilən məlumata görə, əvvəlcə Vətən Müharibəsi Qəhrəmanı, general-mayor Zaur Cavanşir Xüsusi Təyinatlı Qüvvələrin komandanı, Vətən Müharibəsi Qəhrəmanı general-leytenant Hikmət Mirzəyevə təlim iştirakçılarının açılış mərasiminə hazır olduqları barədə məruzə edib.***

Xüsusi Təyinatlı Qüvvələrin komandanı üç dövləti təmsil edən xüsusi təyinatlıları birgə təlimlərin başlaması münasibətilə təbrik etdikdən sonra Azərbaycan, Türkiyə və Pakistanın şəhidlərinin xatirəsini yad etmək ucun bir dəqiqəlik sükut elan olunub.

"Azərbaycan, Türkiyə və Pakistan xüsusi təyinatlılarının birgə təlimi öz tarixinin ilk mərhələsinə qədəm basır. Bu təməlqoyma hadisəsi olacaq; təlimlər üç ölkənin düşmənlərinə çox aydın mesaj göndərərdi. Eyni zamanda, birgə beynəlxalq təlim, müxtəlif pisliklərə qarşı mübarizədə əməkdaşlığı artırmaq niyyəti güdür".

**■ Bu barədə hafta.az-a müsahibəsində BMT-nin Davamlı İnkişaf Məqsədləri üzrə beynəlxalq eksperti, Pakistan - Azərbaycan Məzunlar Dərnəyinin qurucusu Qayser Navab deyib. Ekspertin sözlərinə görə, üstəlik, təlimlər üç ölkə arasında təcrübə və bilik mübadiləsinə də öz töhfəsini verəcək.**

Cənab Navab bildirir ki, birgə hərbi təlim üç qardaş ölkənin xalqları üçün mənəvi dəstəkləyici rol oynayacaq. Onun fikrincə, bundan öncə də Azərbaycanla Türkiyə birgə hərbi təlim keçirmişdi. Bu gün Pakistanın da iştirakı ilə daha bir təlimə start verilməsini ölkələrimiz arasında qardaşlıq münasibətlərinin möhkəmlənməsi baxımından ancaq alqışlamaq lazımdır. Bu üç ölkə Azərbaycan torpaqlarının Ermənistanın işğalından qurtarmaq üçün də birgə mübarizə aparıblar.

"Bu üç ölkə patrul və müşahidə məqsədləri daşıyan birgə hərbi baza da yarada bilərlər. Bunun heç bir ölkəyə ziyanı yoxdur. Ölkələrimizin birgə müdafiə sistemi qurması da səmərəli olardı. Lakin bu üç ölkə arasında coğrafi məsafəni nəzərə alsaq, o qədər də yaxın ehtimal kimi görünmür", - Qayser Navab deyir.

"Pakistan, Azərbaycan və Türkiyə Silahlı qüvvələrinin iştirakı ilə Bakıda keçirilən "Üç qardaş-2021" birgə hərbi təliminin məqsədi başqa ölkələrə gövdə nümayiş etdirmək yox, bu ölkələrin müdafiə və əməliyyat qabiliyyətləri sahəsində əməkdaşlığı gücləndirməkdir".

**■ Bu sözləri Hafta.az-a müsahibəsində Pakistan, Azərbaycan, Türkiyə Gənclər Forumunun rəhbəri Musavar Hamid Tanoli bildirib.**

Müsahib deyir ki, təlim ölkələrimizin gələcək əməkdaşlığına açılan qapıdır. Azərbaycan Pakistanda istehsal olunan "JF17 Thunder" qırıcıları almaqda maraqlıdır, necə ki, 44 günlük Vətən savaşında qazanılan qələbədə böyük rol oynayan Türkiyə istehsalı SİHA-larla ordusunu təchiz edir.

"Hesab edirəm ki, bu hərbi təlimlərin məqsədləri döyüş hazırlığını artırmaq, birgə əməliyyatların keyfiyyətini yüksəltmək və hətta düşmənə güc nümayiş etdirməkdir", - deyən politoloqa görə, bu gün təlim keçirən adıçəkilən üç ölkənin, məsələn, Qarabağ ərazisində birgə hərbi baza qurması çox yaxşı olardı. "Qarabağda Pakistan, Azərbaycan və Türkiyə hərbçilərinin olması Ermənistana ciddi təsir edəcək və bəlkə də bu, Azərbaycanla Ermənistan arasında sülh prosesini tezləşdirəcək. Türkiyə və Azərbaycan silahlı qüvvələri artıq Qarabağda var və Rusiya sülhməramlıları ilə birlikdə sərhəddəki vəziyyətə nəzarət edirlər.

Müdafiə müstəvisində müqavilənin imzalanması Pakistan, Azərbaycan və Türkiyə üçün məhsuldar ola bilər. Bunu etməklə hərbi və strateji əlaqələrimiz inkişaf edəcək, bir-birimizin imkanlarını anlamağa və bir-birimizdən nələrisə öyrənməyə kömək göstərəcək. Hesab edirəm ki, bu gün start verilmiş birgə hərbi təlim, ölkələrimizin həm müharibə meydanında, həm də sülh şəraitində döyüş qabiliyyətinin artmasına öz töhfəsini verəcək", - pakistanlı politoloq deyir.

*Bu üç ölkə Azərbaycan torpaqlarının Ermənistanın işğalından qurtarmaq üçün də birgə mübarizə aparıblar*

*Qarabağda Pakistan, Azərbaycan və Türkiyə hərbçilərinin olması Ermənistana ciddi təsir edəcək*

*Üç ölkənin rəhbərlərinin uzaqgörən olduğuna inanıram və yüksək koordinasiyanı qorumaq üçün bütün səylərini göstərəcək*

*Zəngəzur bölgəsi müqavilələrə uyğun olaraq nəqliyyatın hərəkəti üçün açılmasa gücdən istifadə edilə bilər*

**■ Pakistanın ölkəmizdəki keçmiş səfiri, böyük diplomat Xalid Usman Qayser hafta.az-a eksklüziv açıqlamasında bildirdi ki, Azərbaycan, Pakistan və Türkiyə arasında münasibətlər, ortaq dəyərlər, tarix, mədəniyyət, hər kəs üçün heç bir ayrı-seçkilik olmadan işləyən beynəlxalq sistemdəki qayda və inancla xarakterizə olunur.**

"Bu üç dövlət həmişə dünyada məzlum insanlara dəstək olub, Dağlıq Qarabağın, Cammu və Kəşmirin və sair işğalını pisləyib. Heç şübhə yoxdur ki, bu üç ölkə təbii müttəfiqlərdir. Onların bütün sahələrdə əməkdaşlığı illər keçdikcə artmaqda davam edəcək", - deyən diplomat əlavə etdi ki, davam edən birgə hərbi təlimlər bu üç qardaş ölkə arasında münasibətləri təkcə müdafiə sahəsində deyil, həm də iqtisadi, ticarət, infrastruktur quruculuğu, qarşılıqlı investisiyalar, təhsil və mədəniyyət sahələrində beynəlxalq parametrlər çərçivəsində daha da gücləndirmək arzusunun təzahürüdür.

"Sözügedən təlimlər heç bir ölkəyə qarşı deyil və eyni zamanda heç bir ölkənin də onlara hücum etməsinə, zərər verməsinə icazə verməyəcəyini göstərən məqsəd daşıyır. Hərbi təlim Pakistan, Azərbaycan və Türkiyənin artan qarşılıqlı əməkdaşlığı, suverenliyinə və ərazi bütövlüyünə qarşı hər hansı problem yaranacağı təqdirdə əl-ələ verəcəyinin ifadəsidir. Üç ölkənin rəhbərlərinin uzaqgörən olduğuna inanıram və yüksək koordinasiyanı qorumaq üçün bütün səylərini göstərəcək, əməkdaşlığımızı daha da gücləndirmək üçün mümkün olan bütün tədbirləri görəcəklər", - Pakistanın Azərbaycandakı keçmiş səfiri Xalid Usman Qayser bildirir.

"Azərbaycanda keçirilən Türkiyə, Azərbaycan və Pakistan birgə hərbi təlimləri böyük Turan ordusunu quraraq, Türkiyə və digər türk dövlətlərinin güclərini birləşdirib Yaxın Şərqdə bir yol layihəsini həyata keçirmək və enerji dəhlizini açmaq üçün yaxşı fürsətlər verəcək".

**■ Bu fikirləri Hafta.az-a müsahibəsində Türkiyə Böyük Turan Hərəkatı Partiyasının başqanı Varol Esen deyib. Onun sözlərinə görə, təlimlər iki ölkə arasında əlaqələrin daha geniş bölgəyə yayılaraq, Yaxın Şərqdə güclü təsir mərkəzi yaratmaq mənasını verir.**

"Adıçəkilən üç ölkə hərbi ittifaq qurmaq üçün birbaşa olmasa da, dolayı yolla ikitərəfli əlaqələr müstəvisində, bu təlimləri keçirməklə həm dünyaya gücünü göstərmək, həm də türk birliyini, Turan ordusunu qurmaq məqsədi daşıdığını düşünürəm. Türk ordusu sülh və sabitlik deməkdir və bunun isbatını Suriyada açıq görürük. Hesab edirəm ki, bu təlimlərlə Türkiyə və Azərbaycan ordularını birləşdirərək hərbi güc yaratmağın mesajını verirlər", - deyir türkiyəli siyasətçi.

Cənab Esen xatırladır ki, hazırda Pakistan Türkiyənin nüvə silahına malik ən böyük müttəfiqidir. "Türkiyə NATO-nun ikinci böyük gücüdür və təşkilatda Birgə İşçi Qrupa komandanlığın ölkəmizə verilməsi, Türkiyənin öz qüvvəsinə görə İngiltərə, Fransa və Almaniyanı geridə qoyduğunu göstərir" deyən müsahibimiz əlavə edir ki, Türkiyə hərbçiləri Azərbaycan ordusuna NATO səviyyəsində hərbi təlimlər keçir. Azərbaycan və Türkiyə 2019-cu ildə ümumilikdə 13 hərbi təlim keçirib və bu Azərbaycanın hərbi standartlarını yüksəldib.

"Türkiyə - Azərbaycan - Pakistan üçlüyünün sahib olduğu hərbi güc və müdafiə potensialı, Pakistanın nüvə qüdrətini də nəzərə alsaq, Yaxın Şərq, Qafqaz, Avropa, Şimali Afrika, Mərkəzi və Cənubi Asiyanı öz təsiri altına salmış olur", - deyir cənab Varol Esen.

Partiya sədri deyir ki, "Üç qardaş" hərbi təlimi Azərbaycan-Türkiyə-Pakistan qardaşlığının hərbi müstəvidə rəsmiləşdirilməsi və dünyaya elan edilməsi deməkdir. Bu o deməkdir ki, Zəngəzur bölgəsi müqavilələrə uyğun olaraq nəqliyyatın hərəkəti üçün açılmasa gücdən istifadə edilə bilər. Varol bəy əlavə edir ki, bu, Türk Birliyinin qurula bilməsi üçün atılacaq ən önəmli addımlardan biridir.

"Daha bir nəhəng layihə var: Xəzər dənizini Bəsrə körfəzinə bağlayacaq kanal. İran ərazisindən keçməsi hədəflənib. Rusiya və İranın ortaq layihəsidir və bu yolla Rusiya, Qara dəniz, Xəzər dənizi, Fars körfəzi və Hind Okeanını birləşdirmək istəyir" deyən siyasətçiyə görə, artıq siyasi müstəvidə Ermənistanın strateji önəmi İran üçün başa çatıb. Bundan sonra Ermənistan iqtisadi mənada Türkiyə, Azərbaycan və Rusiyaya bağlı olacaq. "İran, Rusiya və Ermənistan üçlüyü artıq dağılıb. İran hazırda bölgədə vəziyyəti nəzarətdə saxlamaq üçün Ermənistandan istifadə edə bilmir. Türkiyə və Azərbaycan, Ermənistanla münasibətləri normallaşdırmağa doğru addımlayır və bu da İranın son ümidlərini də puç edəcək", - deyir Varol Esen.



**Qayser Navab,**
Pakistan - Azərbaycan Məzunlar Dərnəyinin qurucusu



**Musavar Hamid Tanoli,**
Pakistan, Azərbaycan, Türkiyə Gənclər Forumunun rəhbəri



**Xalid Usman Qayser,**
Pakistanın ölkəmizdəki keçmiş səfiri, böyük diplomat



**Varol Esen,**
Türkiyə Böyük Turan Hərəkatı Partiyasının başqanı

✍ ***Vüsal***

# "İrana cavab olaraq İsraildə səfirliyimiz açılmalıdır"

## Aktual




**Yenə İrandan Ermənistan və Laçın dəhlizi ilə separatçılara tırlar vasitəsilə yüklər daşınır. Azərbaycan bu yükdaşımalarına görə dəfələrlə bu ölkəyə etiraz etsə də, proses davam edir. Ermənistan yenə 24 kilometrlik ərazi ilə bağlı çığır-bağır salır. Məlum Gorus-Qafan yolunda İran nömrəli maşınlar sərhədçilərimiz tərəfindən yoxlanılır. Politoloq Qabil Hüseynli hafta.az-a şərhində bildirir ki, İran bu davranışları ilə açıq-aşkar Azərbaycanın istiqlalını qəbul etmədiyini göstərir. Politoloq bildirir ki, İran qorxur ki, Azərbaycanın istiqlalı güneydə yaşayan 45 milyonluq Azərbaycan türkləri üçün bir nümunə olar və onlar da vahid Azərbaycan ideyasına köklənmiş olarlar.**



**Qabil Hüseynli,**
politoloq

"Ona görə də şiə, İslam həmrəyliyindən danışan İran xristianlığın bir qolu olan qriqorian erməniləri ilə daha çox əməkdaşlıq edir və çalışır ki, Azərbaycana daha çox ziyan vursun. 44 günlük müharibə dövründə Rusiyadan gələn hərbi yüklərin bir çoxu İranın aeroportları vasitəsilə Ermənistana və Qarabağın dağlıq hissəsinə daşınıb ekstremistlərə verilirdi. Orada yaşayan Azərbaycan türkləri iki tank yüklənmiş tıra od vurub yandırdılar. Təbrizdə və bir sıra yerlərdə etiraz nümayişi keçirdilər ki, Ermənistana kömək qardaş Azərbaycana xəyanətdir. O zaman özlərini bir qədər yığışdırdılar. Müharibədəki qələbəmizdən sonra onlar yenə də separatçı, ekstremist qüvvələri ayaqda saxlamaq üçün köməklərini artırıblar. Azərbaycan nota verdi və İranın bu hərəkətlərini pislədi, İranı yaxın qonşuluq münasibətlərinə riayət etməyə çağırdı. Amma nə fayda? İran ona verilən notalardan sonra Ermənistana yardımını dayandırmadı".

Politoloq hesab edir ki, İranın bu davranışları onunla bağlıdır ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edə bilməsin. Onlar Ermənistana dəstək durub, erməni ordusunun yenidən qurulmasına çalışır.

*İslam həmrəyliyindən danışan İran xristianlığın bir qolu olan qriqorian erməniləri ilə daha çox əməkdaşlıq edir...*

*Biz İranın burada erməni terroruna verdiyi dəstəyi beynəlxalq təşkilatlara bildirməliyik...*

"İran bölgədə balans yaratmaq istədiyini bildirir. Əgər balans yaratmaq istəyirsənsə, bu davranışların nədir? Sən balans yaratmırsan, sən faşistpərəst qüvvələri Azərbaycana qarşı müharibəyə təhrik edirsən". Politoloq bildirir ki, Azərbaycan Gorus-Qafan yolunda polis postları qurub İrandan Ermənistana, Qarabağa gedən maşınları geriyə qaytarır: "Bu onun suveren hüququdur.

Eyni zamanda Azərbaycan peykləri regionu nəzarətdə saxlayır". Politoloq hesab edir ki, İranda yaşayan azərbaycanlılar hökumətə təsir göstərməlidir. İran azərbaycanlılarına xüsusi təbliğat televiziyası, mətbuat açmaq lazımdır.

"İranın bölgədəki ən böyük qənimi İsraildir. İsraillə əlaqələrimiz daha da genişləndirilməlidir. Orada təcili səfirliyimiz açılmalıdır. İran vaxtilə bizi ittiham edirdi ki, guya Azərbaycan İsraillə bölgədə hərbi baza yaratmaq üçün imkan yaradıb. Əslində, belə bir məsələ yox idi, amma bunlar bizi sınağa çəkirdilər. İndi Azərbaycanın geosiyasi rolu elədir ki, bu ərazidən İrana qarşı, istənilən dövlətə qarşı da baza yaratmaq olar. Azərbaycanın belə bir niyyəti yoxdur. Türkiyə bölgədə olduğu şəraitdə daha kimlərinsə bölgəyə gəlməsini istəmərik. Bıçaq sümüyə dirəndiyi zaman biz İranın düşmənləri ilə də əlaqə yarada bilərik. İranın düşmənləri dünyada həddən artıqdır. Dövlət adından danışa bilmərik, amma belə məsələləri gördükcə bizim də verə biləcəyimiz tövsiyələr bu cür olur", - deyə Q.Hüseynli bildirir.



**Asim Mollazadə,**
Milli Məclisin deputatı

"Mən özüm işğal zamanı Qarabağda olanda hər yerdə İran maşınlarını, İran vətəndaşlarını görürdüm. Bu özlüyündə onu göstərir ki, İran müsəlmanları didərgin etmiş, müsəlmanları qətlə yetirmiş, məscidləri dağıtmış ermənilərə dəstək verir və bu, İslam dəyərlərinə ziddir".

■ **Bunu hafta.az-a Milli Məclisin deputatı Asim Mollazadə İrandan Ermənistana və Qarabağa separatçılara tırlar vasitəsilə yüklər daşınmasına münasibətində bildirib.** A.Mollazadə hesab edir ki, İran maşınlarını sərhəddə saxlamaqla yanaşı, bu barədə bütün İslam təşkilatlarına məlumat verməliyik. "Söhbət ondan gedir ki, İran işğalçı rejimi, müsəlmanları qətlə yetirən cinayətkarlara dəstək verib və bu da davam edir. Biz İranın burada erməni terroruna verdiyi dəstəyi beynəlxalq təşkilatlara bildirməliyik. Bu, hərbi münaqişəni yenidən canlandırmağa verilən dəstək kimi dəyərləndirilməlidir...".

✍ *Tahirə*

# Ermənistanın Azərbaycanla müharibəyə başlaması...

**Ermənistan Azərbaycana qarşı hərbi təxribatlarından əl çəkmir, atəşkəsi pozur və paralel olaraq Rusiya sülhməramlılarının dəstəyindən yararlanaraq məhv olmuş ordusunu gücləndirmək istəyir. Hər halda erməni rəsmilərinin torpaq iddiası kontekstində çıxışları Ermənistanın öz məkrindən əl çəkmədiyini, müharibəyə hazırlaşdığını ortaya qoyur.**

Bir çox ekspertlər regionda erməni faşistlərinin davranışları kontekstində yeni müharibənin olması ehtimalını önə çəkir. Bu gün Türkiyənin regionda olduğu bir vaxtda Ermənistanda həyata keçirilən hərbi təlimlər nəyi diqtə edir?

■ **Politoloq Natiq Miri hafta.az-a bildirib ki, müharibə yalnız lokal şəkildə baş verə bilər. O, hesab edir ki, böyük anlamda müharibənin baş verməsi mümkün deyil. Ona görə ki, Ermənistan müharibə istəmir. Ermənistan Rusiyanın və rusun Qərbdə olan digər havadarlarının təhriki ilə bu cür hərbi təxribatlarla vaxt qazanmaq istəyir.**

"Ermənistan Qarabağ, Azərbaycan-Ermənistan sərhədlərinin müəyyənləşməsi və kommunikasiyaların açılması məsələsində 4-cü-5-ci tərəflərin iştirakını təmin etmək istəyir. Ona görə də bu hərbi təxribatlar baş verir. Müharibə etmək Ermənistanın istəyi deyil, çünki ordusu olmayan ölkə müharibə edə bilməz. Müharibə etmək üçün böyük orduya, təchizata, bütün ordu strukturlarına ehtiyac var.

Bu gün Ermənistanın belə bir ordu strukturu və onların arasında ciddi koordinasiya yoxdur. Ermənistanın orduya cəlb olunacaq canlı qüvvəsi mövcud deyil. Ermənistanın Azərbaycanla müharibəyə başlaması ciddi qəbul oluna bilməz". Politoloq bu prosesdə Rusiyanın davranışlarının bir-birinə zidd olduğunu önə çəkib. Onun fikrincə, Rusiya xarici 3-4-cü tərəflərin prosesə müdaxilə olmasını istəmir. Digər tərəfdən, Ermənistanın bu cür addımları, ATƏT-in Minsk Qrupunun prosesə



**Natiq Miri,**
politoloq

müdaxiləsi, Qarabağın status məsələsinin müzakirə obyekti olması, sərhədlərin müəyyənləşməsi prosesinə xarici qüvvələrin müdaxilə etməsi Azərbaycana təzyiq mexanizmi yaradır ki, Rusiya bununla özünün geosiyasi maraqlarını təmin etmək istəyir.

"Rusiya istəyir ki, Azərbaycan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının, Avrasiya İqtisadi Birliyinin üzvü olsun, ancaq bu mümkün deyil. Azərbaycan bunu istəmir və bundan ötrü birinci növbədə Qoşulmama Hərəkatından çıxmalıdır. Əgər Rusiya özü regionda qalmaq istəyirsə, mütləq mənada Azərbaycana qarşı ədalətli davranmalıdır. Bu halda Azərbaycan-Rusiya-TÜrkiyə üçlük formatı yarana bilər ki, bu da Rusiyanın geosiyasi maraqlarına xidmət edən vəziyyət yaradır".

*Ermənistan Rusiyanın və rusun Qərbdə olan digər havadarlarının təhriki ilə bu cür hərbi təxribatlarla vaxt qazanmaq istəyir*

Politoloq bildirir ki, indiki vəziyyət prosesləri başqa istiqamətə aparır. Türkiyə regionda qlobal səviyyədə söz sahibinə çevrilir. Türkiyə təkcə Suriya və Liviyada deyil, həm də Aralıq dənizində söz sahibi olmaqdan ötə Əfqanıstanda da varlığını sürdürür. "Türkiyə Mərkəzi və Cənubi Asiyada güclü bir oyunçuya çevrilir. Bu da o deməkdir ki, gələcəkdə Azərbaycan-Ermənistan arasında bütün kommunikasiyalar, Zəngəzur dəhlizi açılandan sonra Türkiyənin Orta Asiyada, xüsusilə türk cümhuriyyətlərində mövqeləri güclənəcək. Bu gün məzlumların yanında olan qalib Türkiyəni görürük".

✍ *Tahirə*



# Bakının azad edilməsinin 103 ili...

## Tarix

***15 sentyabr Bakının erməni-bolşevik birləşmələrinin işğalından azad olunmasının ildönümüdür. Azərbaycan paytaxtının azadlığından 103 il ötdü. 1918-ci ilin məhz bu günü Azərbaycan və Türkiyə əsgərləri Bakını bolşevik-daşnak işğalından azad edərək Azərbaycan dövlətinin tarixinə şərəfli gün yazıblar. "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı hafta.az-a müsahibəsində mühüm tarixi faktlara diqqət çəkib.***

***- Akif müəllim, Qafqaz İslam Ordusunun Bakını bolşevik-erməni hərbi qüvvələrindən azad etməsinin 103-cü ildönümüdür. Bu tarixi günün Azərbaycan və Türkiyə üçün əhəmiyyəti nədir?***

- 15 sentyabr Azərbaycanın dövlətçilik, müstəqillik tarixi üçün çox mühüm əhəmiyyət kəsb edən bir gündür. Bunun əhəmiyyətini Məhəmməd Əmin Rəsulzadə hələ özünün "Azərbaycan Cumhuriyyəti: keyfiyyəti təşəkkül kitabında yazıb. Orada deyilir ki, 28 may tarix üçün nə qədər önəmlidirsə, sentyabrın 15-nin də o qədər önəmi var. Çünki Bakı nefti ətrafında böyük dövlətlərin mübarizəsi gedirdi və hətta Bakının və Şamaxının sərhədlərinə qədər böyük bir ərazini neytral ərazi kimi saxlamaq istəyirdilər. Əsas diqqət Bakı və Bakı ətrafındakı ərazilərə yönəlmişdi. Bakı bizim üçün tarixi əhəmiyyətli bir ərazi idi və həm də Cumhuriyyətin paytaxtı elan olunmuşdu. Ancaq biz 1918-ci ilə nəzər salsaq görərik ki, Qafqaz İslam Ordusu gələnə qədər elan olunmuş Azərbaycan Cumhuriyyətinin ərazilərində erməni-bolşevik hərbi birləşmələri tərəfindən soyqırımlar törədilirdi. Mart ayının 31-də Bakıda qırğınlar törədilmişdi. 3 gün ərzində təkcə Bakının özündə 18 min insan qətlə yetirilmişdi. Şamaxıda 7-8 min insan qətlə yetirilmişdi.

***- Azərbaycan Xalq Cumhuriyyətinin Osmanlı dövlətindən hərbi yardım istəməsi hansı zərurətdən yaranmışdı?***

- Azərbaycan Xalq Cumhuriyyəti elan olunanda müstəqil ordusu yox idi. Formalaşma mərhələsi 1917-ci ilin sonlarında, Əlağa Şıxlinskinin komandanlığı altında, Milli Müsəlman Korpusu şəklində başlanmışdı. Bu ordu Tiflisdə yaranmışdı, sonradan Gəncəyə köçdü. O Korpusun erməni-bolşevik qüvvələri arasında duruş gətirməsi məhdud idi. Bunun üçün də AXC liderləri Osmanlı dövlətinə müraciət etdilər ki, ərazilərinin, asayişin təminində onlara yardım göstərsin. Məhdudiyyət hərbi qüvvələrin və silah sursatın yoxluğunda idi. Çünki çar Rusiyası dövründə azərbaycanlılar hərbiyə alınmırdılar. Hərbi xidmətə yalnız zadəgan nümayəndələri, onların övladları çağrılırdı və orda yüksək vəzifələr tuturdular. Sonralar birinci dünya savaşı dönəmində azərbaycanlıların orduda iştirakı "dikaya diviziya" adı altında formalaşmışdı. Onların da sayı 600-dən o tərəfə keçmirdi. Ümumiyyətlə, çar Rusiyası dönəmində hərbdə iştirak edən və sonradan geri dönən milli qüvvələrimizin sayı 1100 nəfərdən yuxarı deyildi. 1100 nəfərlə 18 minlik bolşevik-erməni rus qoşununa qarşı mübarizə aparmaq ağılsızlıq idi. Bunun üçün əlavə qüvvə lazım idi və bu da Türkiyədə idi. Çünki Türkiyə həm dini, həm etnik baxımdan Azərbaycana yaxın idi. Bu dövlətin AXC-nin qurulmasında da öz müstəsna təsirini göstərmək imkanları var idi, Cənubi Qafqazda Osmanlı Ordusu olması həm də bu bölgədə sülhün təminatı, erməni qətliamlarının qarşısının alınması üçün lazımdı və bunun üçün belə bir müraciət olundu. Bu da Batum müqaviləsində özünün əksini tapdı. 1918-ci ilin 4 iyun tarixində Azərbaycan və Osmanlı hökumətləri arasında Sülh və Dostluq müqaviləsi imzalandı və 4-cü bənddə göstərilirdi ki, Azərbaycan Cumhuriyyəti öz ərazisini, təhlükəsizliyini təmin etmək, ərazi bütövlüyünü, asayişi qorumaq üçün Osmanlı Ordusundan yardım ala bilər.

Bu yardım sırf hüquqi sənədə əsasən oldu və Qafqaz İslam Ordusu Azərbaycanın sərhədlərinə gəldi. Hardasa 7 mindən çox qüvvə gəldi və burda Azərbaycan Milli Hərbi qüvvələri ilə birləşdi. Bu milli hərbi qüvvələrində həm də Azərbaycan könüllüləri də iştirak edirdi. Yəni silahdan davranış qaydalarını bilən, düşməni zərərsizləşdirmək imkanlarına sahib olan azərbaycanlılar da Qafqaz İslam Ordusunun tərkibinə daxil oldular və böyük bir ordu formalaşdı.



**Akif Aşırlı,**
"Şərq" qəzetinin baş redaktoru

***- Batum müqaviləsi tez-tez önə çəkilir. O müqavilədə Azərbaycanın əleyhinə işləyən məqamlar nədir?***

- O müqavilədə Azərbaycanın zərərinə işləyən məqam ola bilməz. AXC-nin beynəlxalq münasibətlər, hüquq sisteminə ilk dəfə daxil olması Batum müqaviləsi ilə bağlıdır. Azərbaycan Xalq Cumhuriyyəti birinci müqaviləni Osmanlı Türkiyəsi ilə bağladı. Burda da sadəcə ölkə daxili daşınmalardan nəqliyyat vasitələrindən istifadə Türkiyəyə verilirdi ki, bu da çox normal idi. Axı asayişin təmin olunması üçün yardım alınmışdı.

***- 103 illik dövrə baxanda, bu həm də Azərbaycan-Türkiyə qardaşlığına tarixi imza atan bir hadisə kimi önə çıxır. Bu prosesi biz bu günkü dövrümüzdə də müşahidə edirikmi? Bu günə baxanda Azərbaycan-Türkiyə münasibətlərində dəyişən və inkişaf edən nədir?***

- Cənubi Qafqazdakı indiki vəziyyət 100 il əvvəlki dönəmi xatırladır. Ermənilər eyni məfkurədədirlər, eyni torpaq iddiaları ilə çıxış edirlər. Tək Azərbaycana qarşı deyil, Gürcüstana qarşı da bu iddialarda bulunurlar. Türk ordusu həmişə getdiyi bölgələrdə barışı yaradan bir ordu olub. 1918-ci ildə Cənubi Qafqaza gəlişində də məqsəd, burda erməni bolşevik rus birləşmələrinin zərərsizləşdirilməsi olub.

*Cənubi Qafqazdakı indiki vəziyyət 100 il əvvəlki dönəmi xatırladır. Ermənilər eyni məfkurədədirlər, eyni torpaq iddiaları ilə çıxış edirlər*

Məsələn, Cənubi Qafqaza gəlişi təkcə Azərbaycanın dövlət quruculuğu, sərhədlərin müəyyənləşdirilməsi üçün deyil, ərazinin təhlükəsizliyi baxımından Gürcüstan üçün də mühüm rol oynadı. Cənubi Qafqaza gəlişi ilə bölgədə təhlükəsizliyin qarantı rolunu oynadı. Başqa dövlətlərin qara niyytlərinin önündə addımlar atıldı.

1918-ci ilin sonlarında Qafqaz İslam Ordusu geri çəkiləndən sonra ermənilərin ilk hücum etdiyi ölkə Gürcüstan oldu. Dekabrın sonlarına, yanvarın 5-6-na qədər müharibə getdi və yenə də azərbaycanlılar Gürcüstan dövlətçiliyini müdafiə elədi. Bu gün olduğu kimi. Əlbəttə Türkiyənin Azərbaycana, Azərbaycanın da Türkiyəyə dəstəyi olub. Azərbaycan Cumhuriyyəti qurulmazdan öncə çar Rusiyası dönəmində Çanaqqala savaşlarında azərbaycanlılar da döyüşüblər. Balkan savaşlarına qatılıblar. Müsavat Partiyasının 1911-ci il dərgisində azərbaycanlıların islam türk xalqlarını dəstəkləməsi barədə bəyanat verilmişdi. 1911-ci ildə Azərbaycanın dövləti yox idi. Nargin adasında tutulan əsirlərin daşınması onların təhlükəsiz yollarla Türkiyəyə qaytarılması, yaxud əsirlərin ölümdən xilası üçün Azərbaycan elitası, xalqı çox böyük ürək sərf elədi. Bunlar hamısı bir-birinə bağlı detallardır və "ət dırnaq" kimidir.

***- Bu gün Türkiyə regiondadır, güclənib. Azərbaycan torpaqlarını 44 günük müharibədə azad edib və bütün ərazilərində suverenliyini bərpa edəcək. Türkiyənin regionda qalışını necə dəyərləndirirsiz?***

- Hesab edirəm ki, Türk Birliyi ideyasının təməlində çox böyük missiya Türkiyə və Azərbaycanın üzərinə düşür. Bu dövlətlərin birliyinin təmin olunması, həm də Türk dünyasının birliyi deməkdir. Hesab edirəm ki, Türkiyə regiondadır. Artıq Rusiya da bunu etiraf edir. Türkiyənin regiona gəlməsi tarixi bir hadisədir, bizim üçün tarixi şansdır.

✍ *Tahirə Qafarlı*

# Böyük Qayıdışa gedən yol

## Layihə

***44 günlük Vətən Müharibəsinin ildönümünə sayılı günlər qalır. Müzəffər Azərbaycan ordusunun ötən ilin sentyabrın 27-də başlatdığı əks hücum əməliyyatları nəticəsində 30 ilə yaxın düşmən tapdağı altında olan ərazilərimiz azadlığına qovuşdu. Bu qələbə həm də Böyük Qayıdışın təməlini qoydu. Hər keçən gün bizi azad olunmuş torpaqlara qayıdışa daha da yaxınlaşdırır. Çünki hazırda işğaldan azad edilmiş ərazilərin bərpası istiqamətində işlər sürətlə davam etdirilir. Azad olunmuş ərazilərdə təhlükəsizliklə bağlı məsələlərin həll olunması ilə yanaşı, ilkin infrastruktur və sosial xidmətlərin təmin edilməsi ilə bağlı vəzifələr icra olunur.***



Belə ki, dövlət tərəfindən yol infrastrukturu qurulur, dövlət qurumları, ilk növbədə kommunal xidmət göstərən qurumların yerli bölmələri öz sahələri üzrə fəal iş aparırlar. İşğaldan azad olunmuş torpaqların kifayət qədər böyük ərazini əhatə etməsi nəzərə alınaraq, burada iqtisadiyyatın bərpası çoxşaxəli yanaşmaya söykənən vahid konseptual dövlət proqramı əsasında həyata keçirilir. Bu ərazilərdə reallaşdırılan layihələrin mərhələli şəkildə, nəzərdə tutulan müddətdə təhvil verilməsi isə Böyük Qayıdışa gedən yolun heç də uzaqda olmağıdığına ümidləri daha da artırır. Bunun əyani sübutu isə bu yaxınlarda Füzuli beynəlxalq hava limanının istifadəyə verilməsidir. Sentyabrın 5-də hava limanının istismara verilməsindən əvvəl Bakıdan uçan "Azərbaycan Hava Yolları"na məxsus ən böyük "Airbus A340-500" tipli sərnişin təyyarəsi sınaq reysi həyata keçirərək işğaldan azad olunmuş Qarabağın ilk hava limanında eniş etməsi həm də ən böyük tarixi hadisələrdən biridir.

Yeri gəlmişkən, 2021-ci ilin dövlət büdcəsində əsaslı xərclər üçün nəzərdə tutulan vəsaitin 2,2 milyard manatı işğaldan azad olunan tarixi ərazilərimizə böyük qayıdışın təmin edilməsinə xərclənəcək. Əlbəttə, bu, ilkin məbləğdir və Qarabağın dirçəlməsinə davamlı şəkildə vəsait ayrılacaq. Çünki işğdaldan azad edilmiş ərazilərin böyük əksəriyyətində inftastruktur tamamilə dağıdılıb, demək olar ki, mənfur düşmən daşı-daş üstə qoymayıb. Bunları nəzərə alaraq demək olar ki, müxtəlif bölgələrə fərqli dövrlərdə mərhələli şəkildə məskunlaşma mümkün ola bilər. Qeyd edək ki, uzun illər düşmən tapdağı altında olan bu ərazilərdə əsas məsələlərdən biri də pay torpaqlarının əhali arasında bölünməsi ilə bağlıdır. Maraqlıdır, bu proses gələcəkdə hansı yolla tənzimlənəcək? Dövlət ehtiyacı üçün alınacaq torpaqlarla bağlı vətəndaşlarla hansı formada razılığa gələnəcək? Ümumiyyətlə, Böyük Qayıdış layihəsi hazırda hansı mərhələdədir?

**■ Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən Milli Məclisin aqrar siyasət komitəsinin sədri Tahir Rzayev bildirib ki, ötən ilə qədər bütün Azərbaycan xalqı həmin torpaqların həsrətində idi:**

"2020-ci ilin 27 sentybrından 1 ilə yaxın vaxt keçir. Ötən il bu vaxtı o torpaqların necə azad olunacağı barədə düşünülürdü. Ölkə Prezidenti davamlı şəkildə müsahibələr verirdi, xarici ölkələrə gedirdi, BMT, ATƏT qarşısında işğal altında olan torpaqlarımızla bağlı məsələlər qaldırırdı, müzakirələr aparırdı. Artıq həmin dövrdən bir ilə yaxın vaxt keçib və bu gün fəxrlə deyirik ki, işğalda olan torpaqlarımız azad olunub. Bu elə Böyük Qayıdışın təməlidir. Əlbəttə ki, qayıdış problemi çox çətindir, çünki 30 ildə işğal altında qalan, dağıdılan, məhv edilən, minalanan o torpaqlara birdən-birə qayıtmaq çox çətin məsələdir. Ancaq bir ilə yaxın müddətdə görülən işlərə nəzər salsaq görərik ki, möhtəşəm tədbirlər həyata keçirilir. Bu gün biz Füzuli beynəlxalq hava limanından, Şuşaya çəkilən yoldan, Şuşada keçirilən beynəlxalq tədbirlərdən, Kəlbəcərə çəkilən yollardan, Laçına və digər ərazilərdə inşa olunan təyyarə meydanının tikintisindən danışırıq. Təbii ki, bu çox böyük işlərdir. Düşmən tərəfindən dağıdılan, viran qoyulan ərazilər yenidən qurulur. Həmin yerlərə qayıdış da tezliklə baş tutacaq. Bu gün bizim insanlar, eləcə də xarici ölkələrin nümayəndələri, jurnalistlər, beynəlxalq təşkilatların təmsilçiləri Füzuliyə, Ağdama, Şuşaya və s.kütləvi şəkildə səfər edirlərsə və o yerlərdə törədilən vandalizmi öz gözləri ilə görürlərsə, onu təbliğ edirlərsə, bu özü qayıdışa bir təkandır, bir nümunədir. Sözsüz ki, biz o yerlərə qayıdacağıq. Amma ilk növbədə o torpaqlar minalardan təmizlənməli, təhlükəsizlik təmin olunmalı, həyat şəraiti yaradılmalı, insanların yaşayışı, onlara xidmət üçün əlverişli imkan olmalıdır. Bu gün sadaladığımız istiqamətlərdə ən müasir səviyyədə layihələr həyata keçirilir. "Ağıllı kənd", "ağıllı şəhər" layihələrəri beynəlxalq səviyyəli layihələrdir".

**Ekspertlər hesab edirlər ki, hazırda işğaldan azad olunmuş ərazilərdə dünya miqyasında analoqu olmayan layihələr həyata keçirilir**

*Düşünürəm ki, Qarabağın yenidənqurulmasının növbəti mərhələlərində bu üç istiqamət bölgə iqtisadiyyatının formalaşmasında prioritet olacaq*



**Rəşad Həsənov,**
iqtisadçı ekspert

Millət vəkili vurğulayıb ki, hazırda işğaldan azad olunmuş ərazilərdə dünya miqyasında analoqu olmayan layihələr həyata keçirilməkdədir: "Cənab Prezident də dəfələrlə bildirib ki, birinci təhlükəsizlik məsələsini həll etməliyik, insanlar üçün şərait yaratmalıyıq, iş yerləri olmalı, infrastruktur layihələri həyata keçirilməlidir. Daha sonra insanlar gedib həmin yerlərdə azad yaşamalıdırlar. Bəziləri deyir ki, bu gün biz vaxt itirmədən gedək. Gedək orada neyləyək axı? Əgər həmin ərazilərdə təhlükəsizlik yoxdursa, iş yerləri, məktəb, xəstəxana, ictimai-iaşə obyektləri yoxdursa orada neyləmək olar. Ona görə də bu məsələlərə ağılla, düşüncə ilə yanaşmaq lazımdır. Müxalifət qüvvələri, müəyyən Azərbaycanı istəməyən qüvvələr var ki, bu gün durub deyirlər ki, biz Şuşaya gedə bilməyəcəyik, Şuşa artıq qoruq elan olunub. Amma məsələ belə deyil, biz tezliklə həmin ərazilərə dönəcəyik".

Böyük Qayıdışdan sonra pay torpaqlarının əhali arasında necə bölünəcəyi məsələsinə də aydınlıq gətirən komitə sədri bildirib ki, artıq həmin ərazilərdə torpaqların reyestri müəyyənləşdirilib: "Bu yerlərin hamısının xəritəsi aydınlaşdırılıb. Ancaq biz bilirik ki, azad olunmuş ərazilərdə müxtəlif layihələr nəzərdə tutulur. Tutaq ki, Laçında əvvəl 100-dən artıq kənd var idi. Elə kənd var idi ki, orada 15-20 ev vardı. İndi nəzərdə tutulur ki, belə kəndlər birləşdirilsin. "Ağıllı kənd", "ağıllı şəhər" nümunəsində bu kəndlər böyüdülsün. Yəni, bir neçə yaxın kənd birləşdirilsin və infrastruktur yaradılsın və insanlar daha rahat hərəkət edə bilsinlər. Həmin yaşayış məntəqələrində aqrar sektorun inkişafı üçün də müəyyən tədbirlər görüləcək. Arıçılıq, heyvandarlıq kompleksinin, aqrar parkların yaradılması kimi məsələlər hədəflənir. Bu çox düzgün konsepsiyadır. Təbii ki, bu torpaqlar tamamilə minalardan təmizlənəndən sonra bu ərazilərdə müəyyən qaydalar da yaradılacaq. Bələdiyyə institutu formalaşdırılacaq, icra nümayəndəlikləri, inzibati orqanların təmsilçiləri olacaq. Yəni, bu məsələdə heç bir problem olmayacaq. Həmin yerlərin xəritələri var, geri dönüş olduqca bələdiyyə torpaqları da, dövlətə məxsus torpaqlar da, elə xüsusi mülkiyyətdə olan torpaqlar da müəyyən olunacaq. Məsələn, Ağdamın layihəsi ictimaiyyətə təqdim olundu.

Həmin layihə gördünüz ki, necə mükəmməl hazırlanıb. Ağdama, eləcə də digər regionlara getmək istəyənlərin hamısının qeydiyyatı aparılıb. Tutaq ki, Ağdamda böyük müasir şəhər yaradılacaq. Sakinlər isə rayonun ətrafında torpaq sahələri ilə təmin olunacaqlar. Yəni, şəhər özü müasir olacaq, parklardan, gözəl binalardan, muzeylərdən ibarət olacaq. Artıq əvvəlki kimi muzeyin yaxınlığında hansısa yaşayış məntəqəsi salmaq mümkün olmayacaq, elə bilirəm ki, bu düzgün addım da olmaz. Bu da düzgün addımdır. Qoy muzeyin yanında müasir park olsun, insanlar da gələndə yaxşı dincəlsinlər, müasir şəhər görsünlər. Yəni, heç kəs narahat olmasın, gələcəkdə torpaqların bölgüsü qanunauyğun şəkildə aparılacaq".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

### Ekspert rəyi...

**■ Məsələyə münasibət bildirən iqtisadçı ekspert Rəşad Həsənov hesab edir ki, Qarabağda müəyyən mərhələlərdən sonra iqtisadiyyatın inkişafı ilə bağlı proses başlamalıdır:**

"Artıq həmin bölgələrin iqtisadi potensialı qiymətləndirilib. Bilinən ondan ibarətdir ki, ilk növbədə kənd təsərrüfatı və turizm sektorunun inkişafı üçün kifayət qədər böyük potensial var. Tarixi dəyərlər, flora və faunanın uyğunluğu, coğrafi mühit baxımından turizmin kifayət qədər böyük potensial daşıdığı bildirilir. Həmin ərazilərdə, faktiki olaraq, yeraltı qiymətli metal və daşlar, eyni zamanda, qiymətli tikinti materialları ilə zəngin yataqlar var. Bu baxımdan mədən sənayesinin də inkişafında potensiallar dəyərləndirilir. Düşünürəm ki, Qarabağın yenidənqurulmasının növbəti mərhələlərində bu üç istiqamət bölgə iqtisadiyyatının formalaşmasında prioritet olacaq. Amma eyni zamanda, təbii ki, bu sahələrin inkişafı digər sektorların inkişafı üçün də əlverişli mühit yaradacaq. Digər tərəfdən, bölgədə innovasiyanın tətbiqi ilə müasir tələblərə uyğun istehsal sahələri də yaradılmalıdır. Məsələn, xüsusi iqtisadi zonaların yaradılması məsələsi vacib məqamdır. Burada həm sənaye parkları və məhəllələri, turizm rekreasiya zonalarının yaradılması, həm də azad ticarət zonalarının, aqroparkların yaradılması kimi məsələlər üçün kifayət qədər əlverişli mühit var".

***✍ Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## XƏBƏRİNİZ OLSUN...



■ "Dost və qardaş Azərbaycanın paytaxtı Bakının işğaldan qurtuluş ildönümünü ürəkdən təbrik edir, Qafqaz İslam Ordusunun Komandanı Nuru Paşanı və qəhrəman əsgərlərini rəhmətlə anıram". Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Twitter"də bildirib. "Azərbaycan xalqına salam və sevgilərimi çatdırıram", - deyə Türkiyə dövlət başçısı qeyd edib.

---

■ Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 2064 yeni yoluxma faktı qeydə alınıb, 3831 nəfər müalicə olunaraq sağalıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan hafta.az-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 28 nəfər vəfat edib.

---

■ Bu ilin yanvar-avqust ayları ərzində Azərbaycana 122 245,94 ABŞ dolları dəyərində 480 960,65 ton buğda idxal edilib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə ölkəyə idxal edilən buğdanın dəyəri 16,9%, həcmi isə 30,2% azalıb. Qeyd edək ki, bu ilin yanvar-avqust ayları ərzində buğda idxalı Azərbaycanın ümumi idxalının 1,66%-nə bərabər olub.

---



■ Tanınmış hakim koronavirusa yoluxub. Bakı Hərbi Məhkəməsinin hakimi Elbəy Allahverdiyevin COVİD-19 analizinin cavabı müsbət çıxıb. Bu səbəbdən onun icraatında olan cinayət işləri üzrə məhkəmə prosesləri təxirə salınıb. Bundan başqa, onunla birlikdə kollegiyada təmsil olunan digər hakimlərin də icraatında olan cinayət işləri üzrə məhkəmə prosesləri təxirə düşüb. Qeyd edək ki, E. Allahverdiyev əvvəllər Gəncə Ağır Cinayətlər Məhkəməsinin hakimi, Tərtər Hərbi Məhkəməsinin sədri olub.

---

■ Bu ilin yanvar-avqust aylarında Azərbaycanın xarici ticarət dövriyyəsi 20 284 862,1 min. ABŞ dolları təşkil edib. Bu illik müqayisədə 22,4% çoxdur. İlin ilk yarısında ixrac 12 935 338,63 min. dollar, idxal isə 7 349 523,51 min. dollar təşkil edib. İllik ifadədə Azərbaycanın ixracı 30,9%, idxal isə 9,8% artıb. Hesabat dövründə 5 585 815,1 min. dollarlıq müsbət saldo yaranıb ki, bu da ötə ilin analoji dövrü ilə müqayisədə 75,1% çoxdur.

---



■ Yevlax Şəhər İcra Hakimiyyətinin sabiq başçısı Qoca Səmədov həbsdən buraxılıb. Bu barədə onun vəkili Elnur Vəliyev məlumat verib. Vəkil bildirib ki, bir müddət əvvəl sabiq icra başçısının vəziyyəti pisləşib və o, Bakı şəhərində Mərkəzi Klinikaya yerləşdirilib.

Ötən gün isə həbs qətimkan tədbirinin dəyişdirilməsi ilə bağlı vəsatət verilib. Şəki Ağır Cinayətlər Məhkəməsi vəsatəti təmin edib və sabiq icra başçısı barədə başqa yerə getməmək barədə iltizam tədbiri seçilib.

---

■ Bu ilin avqust ayı üzrə aylıq sosial müavinət və təqaüd alanların sayı 691 min nəfərdən çox olub. Bu barədə hafta.az-a Dövlət Sosial Müdafiə Fondunun İctimaiyyətlə Əlaqələr departamentindən məlumat verilib. Qeyd edilib ki, onlardan 393 min nəfərdən çoxunu aylıq sosial müavinət alanlar, 298 min nəfərini isə təqaüd alanlar təşkil edib.

# "Yeganə xalqıq ki, Rusiya əhalisinin 50 faizi bizimlə eyni qanı daşıyır"

## Siyasət

***"Türkiyə ilə Rusiya Qarabağda uzlaşmayıb. Krımda, Abxaziyada uzlaşmayan türk-rus münasibəti Qarabağda heç uzlaşmaz". Bunu hafta.az-a ADP sədri Sərdar Cəlaloğlu regionda müşahidə olunan proseslər, Azərbaycanda keçirilən Türkiyə-Azərbaycan birgə hərbi təlimləri ilə bağlı danışarkən deyib.***

Onun sözlərinə görə, bu gün Türkiyə, Pakistan və Azərbaycanın xüsusi təyinatlılarının birgə təlimləri regionda marağı olan dövlətlərə, xüsusən də Rusiya sülhməramlılarına, eləcə də guya bu gün müharibəyə hazırlaşan Ermənistana bir mesajdır.

"Bu təlimlər ondan xəbər verir ki, III dünya müharibə olarsa, öndə bu üç dövlətin xüsusi təyinatlıları olacaq. İkinci tərəfdən, bu gün Azərbaycan və Türkiyə hərbi qüvvələri Laçında hərbi təlimlər keçirlər. Bu da o deməkdir ki, nəsə baş verərsə, biz birgə vuruşacağıq. Bu proses həm də onu göstərir ki, artıq defakto Konfederasiya qurmuşuq. Şuşa Bəyannaməsi həm də, Federasiya şərtlərini ortaya qoyub.

Proseslər hamısı Konfederasiyadan ötüb Federasiyaya doğru inkişaf edir". S.Cəlaloğlu hesab edir ki, Türkiyə ilə Rusiya regionda hər iki dövlət üçün təhlükə olan məsələlərdə uzlaşıblar. Onun sözlərinə görə, maraqların toqquşduğu yerdə uzlaşma yoxdur.

Partiya sədri son vaxtlar Xankəndiyə girişimizlə bağlı siyasi düşərgədə yaranan məsələlərə də diqqət çəkib.

"Biz çalışmalıyıq ki, Xankəndiyə ən az itki il gedək. Xankəndinin suverenliyini 1 il gec qaytaraq, amma bir Azərbaycan əsgərinin burnu qanamsın. Zatən bu istiqamətdə xeyli işlər görülüb. Putin deyirdi ki, türklər gedib Bakıda yerləşsin. Biz indi artıq Laçın dəhlizində əlimizdə silah orda türklərlə təlimlər keçirik. Bu nə deməkdir? Bu, ruslara, ermənilərə bir mesajdır. Ermənistanda təlimlər keçir, lap yaxşı, hazırlaşsınlar vuruşaq. Rus ekspertləri isə deyirlər ki, əgər Ermənistan Azərbaycanla müharibəyə başlasa, Azərbaycanın, Gürcüstanın tərkibinə keçəcək". S.Cəlaloğlu bildirib ki, bu gün Rusiyanın Qarabağda sülhməramlılarla, eləcə də beynəlxalq aləmdə apardığı oyunlar özünü dağılmaqdan qorumağa istiqamətlənib. Onun fikrincə, Rusiyanın daxilində o qədər problem var ki, əhalinin diqqətini xaricdə yaratdığı süni münaqişələrə cəlb etməklə xilas olmaq istəyir. O ki qaldı aqoniya vəziyyətində olan Rusiyanın bizi də yandırma ehtimalına, S.Cəlaloğlu bunu yanlış saydı.



**Sərdar Cəlaloğlu,**
ADP sədri

"Rusiya bizi qətiyyən yandıra bilməz. Bu cür fikirlər ruspərəst qüvvələrin başının altından çıxır. Rusiya bizim yanımızdan yel olub ötə də bilməz. Biz yeganə xalqıq ki, Rusiya əhalisinin 50 faizi bizlə eyni qanı daşıyır. Başqa xalqların müharibəsi ruslar üçün o qədər də qorxulu deyil. Amma bizimlə, Türkiyə ilə münaqişəyə getmək Rusiyanın ölümü ola bilər. Çünki 50 milyon türk Rusiyada müstəqilik istəyir. Rusiya o vaxta qədər meydan sulayacaq ki, xalqlar hamısı Rusiya siyasətinə tabe olsunlar. Bu dəqiqə tatarlar, başqırdlar da Türkiyəni özlərinə lider hesab edirlər. Baxın, Qarabağda bizim qələbəmizlə bağlı Rusiyada yaşayan türklər nə qədər Azərbaycana dəstək verdilər. Son 200 il ərzində biz nə vaxt Rusiyaya nota vermişik. Amma indi gündə bir nota veririk. Rusiya kifayət qədər çəkinir. Rusiya ekspertləri deyirlər ki, Qarabağa girməklə Rusiya özünü təhlükəyə saldı.

*Rusiya bizi qətiyyən yandıra bilməz. Bu cür fikirlər rusperəst qüvvələrin başının altından çıxır*

Türkiyə də sakit görünmür. Nəhəng işlərin ətaləti də böyük olur", - S.Cəlaloğlu deyir.

***✍ Tahirə***

# Azərbaycanda 15 min nəfərə 1 köşk düşür

## Media

***Müasir Azərbaycan mətbuatının mövcud durumu və cəmiyyətin inkişafı prosesindəki rolu, əhəmiyyəti müzakirə predmeti olaraq daim diqqətlə izlənir, təhlil olunur. Mediamızın mövcud fəaliyyəti cəmiyyətin güzgüsü, informasiya təminatçısı və eləcə də dövlət orqanları ilə xalq arasında vasitəçi qismində çıxış edərək ictimai fikrin formalaşmasında daşıdığı missiyaya əsasən zamanın müəyyən kəsimlərində birmənalı qarşılanmayıb. Mediamız özünün funksiyasını necə yerinə yetirir və hansı çətinlikləri, üstünlükləri var? Bu və digər məsələlərlə bağlı hafta.az-a müsahibə verən Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli maraqlı fikirlər söyləyib.***



**Müşfiq Ələsgərli,**
Mətbuat Şurasının sədr müavini

***- Müşfiq bəy, mediamızın bugünkü durumu sizi qane edirmi?***

- Cənab Prezident 2018-ci ildən ölkədə böyük islahatlar dalğası yaradıb və mətbuat da bu proseslərin içərisindədir. Mətbuat bu şəffaflaşmada öndə olmalıdır və hər şeyi xalqa olduğu kimi çatdırmalıdır. Yəni mətbuatımız həm ölkədə islahatlar haqqında bilgi verir, həm də özü islahatlar mərhələsini keçir. Təbii ki, islahatlar formasına keçdiyimizə görə hər şey ənənəvi formada qala bilməz. Dəyişimlər, yeniliklər olmalıdır və bu proses gedir.

***- Mətbuatımızda dediyiniz o yeniliklər nə ilə bağlıdır?***

- Bu yenilənmə ilk növbədə hakimiyyətin, dövlətin mediaya yanaşmasında və media ilə münasibətlərindədir. Bu gün jurnalist üçün Prezident də daxil olmaqla, dövlət məmuru ilə kontakta keçmək, ünsiyyətdə olmaq istədiyi sulallara cavab tapmaq o qədər də problem olmur.

Birinci, dünya mətbuatının ilk trendlərindən biri informasiyanın əlçatımlığıdır. Bilirsiniz ki, bəzi yeni modellər tərtib olunur. Tutaq ki, pandemiya dövrüdür, bu sahədə informasiya operativliyi var. Ona görə də Operativ Qərargah yaratdılar və o qərargahda gündəlik brifinqlər keçirildi, jurnalistlərə istədikləri cavablar təqdim olundu. Yaxud 44 günlük müharibədə hərbi informasiya mərkəzi yaradıldı və oradan informasiyanın operativ idarəedilməsi baş verdi. Eləcə də dövlətin kommunikasiya siyasətində yenilik var. Yəni aktual olan mövzu ətrafında bir mərkəz yaratmaq, o mərkəzdən informasiyanı idarə etmək, informasiyanı əlçatan etmək, bu artıq yeni modeldir.

İkincisi, dövlətin media siyasətini həyata keçirən qurumların özündə dəyişikliklər oldu. Məsələn, bundan qabaq Prezident Administrasiyasında ictimai-siyasi şöbə var idi, o şöbə ləğv edildi və bir neçə şöbə arasında səlahiyyətlər bölündü. Əvvəllər media, QHT və sair sahələr bir şöbədən idarə olunurdusa, indi həmin şöbə əvəzinə kommunikasiya və iş üzrə şöbə yaradılıb. Kommunikasiya daha böyük anlamdır. Onun içərisində sosial media var, əlaqələrin başqa tipləri də var. Bu onu göstərir ki, dövlət bu sahə üzrə yeni yanaşma ortaya qoyur.

Üçüncü bir məsələ odur ki, bundan əvvəl olan Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu ləğv olundu. Əvəzində Medianın İnkişafı Agentliyi yaradıldı, funksiyaları dəyişdi. Ən böyük məsələlərdən biri media haqqında yeni qanun layihəsinin hazırlanmasıdır. Məsələn, dünyada onlayn media 30 ilə yaxındır ki, aktualdır. Yeni media tipləri ortalığa çıxıb. Bu 20 il müddətində Azərbaycanda onlayn medianın fəaliyyəti tənzimlənmirdi. Onun haqqında bir qanunvericilik bazası yox idi. Bu bir tərəfdən cəmiyyət üçün problem yaradırdısa, digər tərəfdən həmin onlayn meda qurumlarının özü üçn problem yaradırdı, çünki onların statusu tanınmırdı.

İki aydan sonra media sahəsində islahatların başlanmasının 2 ili tamam olacaq. Bu prosesi sürətlə də keçmək mümkün idi. Məsələn, cənab Prezident 2021-ci ilin yanvar ayında media haqqında yeni qanunvericiliyin hazırlanması, islahatların dərinləşməsi haqqında qərar verib. Orada vaxt qoyulmuşdu ki, 3 ay müddətində bu qanun hazırlanıb müvafiq qurumlara tapşırılsın. Doqquz ay keçib, hələ də qanun layihəsi tərtib olunmayıb. Bax, belə prosedurlar var ki, onu sürətlə keçmək olar.

Onlayn medianın statusu tanındı. Bilirsiniz ki, iyul ayında Media Agentliyi media qurumları üçün yeni müsabiqənin nəticələrini açıqladı. Orada ənənəvi media qurumları ilə yanaşı, 30-a yaxın onlayn media qurumuna maliyyə yardımı göstərildi. Mən onlayn medianın üzərində ona görə çox dayanıram ki, müasir dövrümüzdə Azərbaycan üçün çox vacibdir. Bilirsiniz ki, uzun illər Azərbaycan özünün haqq səsini dünyaya çatdırmaq üçün çətinliklərlə rastlaşıb. Bizim səsimiz şüurlu şəkildə boğulub. Erməni şəbəkəsi tərəfindən Azərbaycana qarşı şüurlu şəkildə əks-təbliğat həyata keçirilib. Bizim ənənəvi media ilə həmin təbliğatı qırmaq mümkün deyildi. Bu gün internet dövrüdür və bir informasiyanı 3-4 dildə, hətta 7 dildə yayan onlayn media qurumlarımız var. Yəni onlayn media sərhəd tanımır. Təəssüf ki, bizdə indiyə qədər onlayn sferada yayılan informasiyaların çox hissəsi feyk-nyüslardan ibarətdir. Xəbər standartı tanımır.

Burada şəxsi həyata müdaxilə, müəllif hüquqlarının tanınması və sair dünyada çoxsaylı trend olan məsələlər də var ki, onlar gözlənilmirdi. Bu gün dövlət özü onlayn qurumların peşəkarlaşması üçün proqramlar həyata keçirirsə və bunun icrasına başlayıbsa, bu, çox yaxşı haldır.

***- Müşfiq bəy, bu günlərdə bir media adamından medianın mövcud halını soruşanda dedi ki, indi mediamızın vəziyyəti işğaldansonrakı Ağdamın vəziyyəti kimidir. Ümumən götürəndə onun problemləri nə ilə bağlıdır?***

- Azərbaycan mediasının bir çox problemləri var. Onlardan biri müstəqil statuslu ekspertlərin olmaması və ya azlığıdır. Çox təəssüf ki, Azərbaycanda özünü media eksperti edən şəxslərdən çoxu siyasi konnekturaya uyğunlaşdı. Yəni reallıqdan deyil, çox vaxt siyasi konnekturaya uyğun danışırlar. Gəlin, medianın necə xarabazara çevrilməsindən söhbət açaq. Medianın cəmiyyətdə funksiyası nədir? Məlumatlandırmaq, maarifləndirmək və sair... Modern dildə deyirlər ki, media və jurnalistikanın funksiyasi cəmiyyətin marağında olan informasiyanı tapıb ona çatdırmaqdır. İkinci funksiyası isə dövlət qurumları üzərində ictimai nəzarəti həyata keçirməkdir. Gəlin, birinci funksiyaya baxaq. Azərbaycanda elə bir informasiya varmı ki, siz ondan xəbərsizsiniz?.. Hamı danışır ki, media yerində deyil, batıb, qırılıb gedib, amma hamı da hər şeydən məlumatlıdır. Məlumatları haradan alırsınız? Söhbət burada klassik, ənənəvi mediadan getmir. Bu gün dünyada alternativ informasiya mənbələri var. Ola biər ki, ənənəvi qəzet bizə informasiyanı çatdırmır, amma onlayn media, sosial media çatdırır. Bunlar alternativ informasiya mənbələridir. Burada media, informasiya məkanının dağılmasından söhbət gedə bilməz...

Dünyada böyük dövlət olan Çin, İran və digər ölkələrdə internetə, bəzi sosial şəbəkələrə dövlət səviyyəsində qadağa qoyulub. Bizi gedib həmin ölkələrlə müqayisə etmək olmaz. Medianın dağıldığı, informasiya qıtlığının olduğu ölkələr onlardır, biz deyilik. Bəzən diqqət yetirmişəm, ekspertlər başqa bir şəxsi vurmaq üçün elə söz deyirlər ki, bu, ümumilikdə Azərbaycanın ziyanına işləyir. Bizdə media da var, media quruluşu da var, azadlığı da var.

***- O zaman deyək ki, bu fikirləri ortaya çıxaranların dərdi nədir? Bunlar mətbuat "bazar"ında nəyi görmək istəyir?***

- Məsələn, bu gün Azərbaycanda medianın maliyyə müstəqilliyini təmin edəcək reklam bazarı yoxdur. Dünyada qəbul olunmuş standartlara görə, bir KİV qurumunun maliyyə gəlirinin 75 faizi reklamdan formalaşmalıdır, 25 faiz satışdan, yayımdan, ianələrdən və sair. Bu gün büdcəsinin 75 faizi reklamdan formalaşan media qurumu varmı? Yoxdur! Bu ölkədə reklam dövriyyəsi daxili məhsulun, yaxud ən pis halda dövlət büdcəsinin 1 faizi qədərdir. 20 milyardlıq dövriyyəsi olan ölkədə reklam büdcəsi, ən azı, 200 milyon civarında olmalıdır. Statistika Komitəsinin elanlarından bəlli olur ki, bu gün Azərbaycanın 7-10 milyon arasında dövriyyəsi var. İndi gəlin baxaq, Azərbaycanda nə qədər KİV qurumu var. Tutaq ki, 6 min KİV qurumu, 7 milyon da reklam büdcəsini götürəndə, üst-üstə hər KİV qurumuna 150-200 manat pul düşür. Sizə deyim ki, çox ciddi bir problemdir. Əvvəla, yalan xəbərlərdən biri KİV qurumlarının sayı ilə bağlıdır. Sizi əmin edirəm ki, ölkədə 6 min KİV qurumu yoxdur.

***- Nə qədərdir?***

- Rəqəmi bilirəm, amma bunu açıqlaya bilmərəm. Söhbət qeydiyyatdan keçməklə bağlı deyil. Qeydiyyatdan keçən KİV-lərin heç də hamısı real fəaliyyət göstərmir. Real fəaliyyət göstərən KİV qurumları ilə təkcə qeydiyyatdan keçən KİV-lər arasında çox ciddi kəmiyyət fərqi var.

***- Azərbaycanın media bazarında reklam niyə yoxdur?***

-Adətən, bunu KİV-lərin üzərinə atıb deyirlər ki, yaxşı meneceri yoxdur. Yalan söhbətdir. Azərbaycanda reklam var və çox təəssüf ki, bu reklamlar gizli reklamlardır, qanunsuz dövriyyəsi olan reklamlardır.

Məsələn, bu gün radionu, televizoru açın, bunu görəcəksiniz. Bizim bəzi media ekspertləri kimi, tibb üzrə bir ekspert çağırırlar, danışdırırlar. Buna sual verilir ki, bu kəsin filan xəstəliyi var, neyləməlidir? Ekspert də ona cavab verir ki, filan poliklinikaya getməlidir. Bu, artıq ekspert sözü deyil, gizli reklamdır. Yəni bunu o televiziyanın ağlı kəsmir, verir. Təbii ki, ortada anlaşma var. Bu, aradan qaldırılmalıdır.

***- Reklamın olmaması hansı probemləri yaradır?***

- KİV qurumu fəaliyyət göstərməsi üçün özünün maliyyə dövriyyəsini təmin etməlidir. Bu dövriyyə əgər qanuni yollarla, reklamla, elanla, satışla formalaşmırsa, o zaman bunlar müxtəlif iqtisadi, siyasi qrupların, şəbəkələrin himayəsini qəbul etməli olurlar. Beləliklə, onlar xəbər standartlarını deyil, himayəsində olduqları siyasi, iqtisadi, kriminal qurumların sifarişini yerinə yetirməyə məcbur olurlar.

> “
>
> *Əgər bir ölkədə medianın siyasiləşməsi amili varsa, orada müstəqil, peşəkar institutlaşmış KİV-lərdən danışa bilmərik. Bu baxımdan medianın reklam-elan məsələləri həll olunmalıdır*

Sonda mediada siyasiləşmə amili meydana gəlir. Əgər bir ölkədə medianın siyasiləşməsi amili varsa, orada müstəqil, peşəkar institutlaşmış KİV-lərdən danışa bilmərik. Bu baxımdan medianın reklam-elan məsələləri həll olunmalıdır. Məsələn, bu gün islahatlar dalğası başlayıb, amma bəzi məqamlar var ki, dəyişməyib. Məsələn, reklam və elanlarla bağlı xüsusi addım atılmayıb. Dövlət deyir ki, reklam və elanın verilməsi özü müstəqil bir sahədir. Biz gedib hansısa şirkəti məcbur edə bilmərik ki, reklam verin. Əgər ölkədə demokratik inkişaf istəyiriksə, bu məsələnin həlli hansısa formada tapılmalıdır.

Yayım infrastrukturu barədə ciddi problemlər var. Normal ölkələrdə hər 1 000 nəfər əhaliyə 1 köşk düşür. Azərbaycanda isə 15 min nəfərə 1 köşk düşür. Baxırsan, böyük rayonlardır, orada nə köşk, nə yayım strukturu var. Ənənəvi yayım forması olan abunəçilik strukturu da dağılıb.

Bu gün medianın ümumi bir bazası yaradılır. Gözləntilər çoxdur. Bu proses yekunlaşsaydı, növbəti mərhələ üçün bu məsələ də həll edilərdi. Əsas məsələ niyyətdir və görünür ki, buna hökumətin niyyəti var. Bu proses sürətlə keçməlidir.

***- Jurnalistlər üçün tikilən 3-cü bina ilə bağlı müəyyən gərginlik yaşandı və hələ də mübahisələr var. 3-cü binanın aqibəti necə olacaq?***

- 2003-2005-ci illərdə Parlament Jurnalistlər Birliyi, Həmkarlar İttifaqı jurnalistlərin mənzillə təmin olunması məsələsini gündəmə gətirmişdilər. Jurnalistlərin ev məsələsini gündəmə gətirənlərdən biri də biz olmuşuq. Apardığımız araşdırmalarda məlum olmuşdu ki, o dövr Azərbaycanda fəaliyyət göstərən jurnalistlərin 95 faizinin mənzili yoxdur. Problem odur ki, jurnalistikada çalışmaqla o problemi aradan qaldırmaq mümkün deyil. O vaxt ölkədə ipoteka kreditləşməsi başlamışdı. Məsələn, 2009-cu ildə belə bir açıqlama vermişdik ki, Azərbaycanda cəmi iki nəfər ipoteka kreditindən istifadə edib. Jurnalistin aldığı əməkhaqqı ilə ipoteka kreditinin verilməsi arasında kəskin ziddiyyətlər var idi.

Əlavə olaraq jurnalistlə əmək müqaviləsi bağlanmırdı, əmək münasibətləri rəsmiləşdirilmirdi. Ona görə də o, ipoteka kreditləşməsinə düşə bilmirdi. Çox ağır durum yaranmışdı. Baxın, o ağır durum həmin o keçici dövrə təsadüf edir. Media 1990-cı illərdə bir sistemlə yaşamışdı, 2000-ci ildə başqa bir sistemə keçid elədi. Ortada 1990-cı illərdə qırılıb-qalmış bir nəsil var idi. Onlar nə köhnə sistemlə idarə olunurdular, nə də təzə sistemə inteqrasiya oluna bilmirdilər. Bunlarda kütləvi şəkildə mənzilsizlik problemi var idi. Bu gün jurnalistikaya yeni gəlmiş şəxsər üçün o problemləri həll eləmək asandır. Əməkhaqqı yüksəkdir, valideyn himayəsindədir və mənzil problemini həll edə bilir. Adam var ki, bu gün 50 yaşı var, gəncliyi həmin o 1990-cı illərə düşüb. Həmin illər o məqamı ötürdüyünə görə problemi həll edə bilmir. O vaxt hesablamışdıq ki, dövlət keçid dövrü üçün müəyyən addımlar atmalıdır. Keçid dövrünü tamamlayandan sonra dövlətin bu qədər əziyyət çəkməsinə ehtiyac qalmayacaq.

Biz təkliflər vermişdik. Məsələnin bu qədər köklü şəkildə həll olunacağını gözləmirdik. Təklif edirdik ki, Bakıda kooperativ evlər tikmək üçün müəyyən yerlər verilsin və sair. Yaxud jurnalistlər də sosial zümrə olaraq ipoteka kreditinə daxil edilsin. Məsələni bu cür qaldırmışdıq. Sağ olsun, cənab Prezident mənzilləri tikdi və jurnalistlərə pulsuz verdi.

Ziddiyyət jurnalistlər üçün tikilən 3-cü binanın üzərində yaranıb, 3-cü bina jurnalistlərə verilmədi. Əgər o 3-cü bina da verilsə, 1990-cı illərdən qalma nəsil jurnalistləri artıq 3-cü binanın verilməsi ilə təmin edilib qurtarmış sayılır. Ondan sonrakı nəsil üçün artıq yeni şərtlər hazırlamaq olar. Hökm deyil ki, bina tikib verəsən. İpoteka kreditlərindən istifadə edən sosial zümrə kateqoriyasına daxil etməklə problemləri həll ola bilər. Həyatını yeni quran jurnalistlə, həyatının ortasında və sonunda olanlar arasında fərq var. Bizim hesablamamıza görə əgər 3-cü bina da jurnalistlərə verilərsə, artıq o problem böyük mənada həll edilmiş sayılır.

***- Veriləcəkmi?***

- Təəssüf ki, bəzi şəxslər jurnalistlərin mənzil məsələsinin üzərində manipulyasiya edirlər. Mən o məsələlər ətrafında müzakirələr aparanda soruşuram; o adamlar bilirlərmi nə qədər evsiz jurnalist var və neçə faizi həmin 90-cı illərin burulğanından keçmiş adamlardır? Ortada heç bir statistika yoxdur, amma adamlar durub bunun üzərində fikir yürüdürlər. Yaxşı olar ki, öncə bu statistikanı müəyyən eləsinlər, sonra bunun üzərinə gedilsin. O mənzillərin kimə verilməsi cənab prezidentin müstəsna hüququdur, buna heç kəs irad bildirə bilməz. Biz o təklifi verəndə ağlımıza da gəlmzdi ki, mənzilər tikilib heç bir ödəmə istənilmədən verilə bilər. Bu, Azərbaycan jurnalistləri üçün çox böyük töhfə oldu, amma bu proses tamamlanmaldır.

Ən təəssüf doğuran məqam odur ki, manipulyasiya ən həssas məsələnin üzərində quruldu. Şəhid ailələri bizim ən həssas yerimizdir. Bu məsələdə insanlar qarşı-qarşıya gətirilməməli idi. Ona görə də 3-cü mənzilin jurnalistlərə deyil, başqa-başqa zümrəyə verilməsi ilə bağlı mövzunu gündəmə gətirənlər danışdırılmaldır ki, onlar vəziyyətin izahını versinlər. O zaman dövlət üçün də aydın olacaq ki, bu təşəbbüs hardan gəlib və nəyə yönəlib. Hesab edirəm, yəqin ki, son qərarı cənab Prezident verəcək. Cənab Prezident nə deyəcəksə, bütün məsələlərdə olduğu kimi hər kəs bunu da qəbul edəcək. Yetər ki, bu məsələ manipulyasiya obyektinə çevrilməsin. Təbəqələr üz-üzə qoyulmasın və sonda ədalətli qərar qəbul edilsin.

✍ **Tahirə Qafarlı**

## İqtisadiyyat

***Xəbər verildiyi kimi, 2022-ci ilin dövlət büdcəsində neftinin 1 barelinin qiyməti 45 dollar götürülüb. Hazırda Azərbaycan neftinin dünya bazarında qiyməti 70 dollardan yuxarı təklif olunur. 2021-ci ilin büdcə sənədində isə neftin 1 barelinin qiyməti 40 dollardan götürülmüşdü. Maraqlıdır, gələn il üçün neftin qiymətinin 45 dollardan nəzərdə tutulması hansı səbəblərlə bağlıdır? Ümumiyyətlə, hazırda bazarda vəziyyət necədir? Neftin qiymətində ciddi dəyişiklik gözlənilirmi? Mövzu ətrafında hafta.az-ın müsahibi Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şabandır.***

# Neftin büdcə qiyməti özünü doğruldacaqmı?

***- İlham müəllim, məlum olduğu kimi, gələn ilin büdcə sənədində neftin 1 barelinin qiyməti 45 dollardan nəzərdə tutulub. Bu məsələdə hökumətin daha mühafizəkar qərar qəbul etməsi hansı səbəblərdən qaynaqlanır?***



**İlham Şaban,**
Neft Araşdırmaları Mərkəzinin rəhbəri

- Təbii ki, hökumətin bu addımı özünü sığortalamaqdan irəli gəlir. İndiki şəraitdə nəyisə doğru-düzgün proqnoz etmək olduqca çətindir. Ötən il noyabr ayında cari il üçün neftin qiymətlərinə dair proqnoz verilərkən ekspertlər hesab edirdilər ki, dünya üzrə neftin qiyməti minimal olaraq 52, maksimal 57 dollar arasında dəyişəcək. Bu vəziyyətdən sığortalanmaq üçün əsasən hasilatçı şirkətlər öz büdcələrini 40 dollardan götürdülər. İkinci tərəfdən, cari il üçün belə yüksək qiyməti dünyada postpandemiya dövründə iqtisadiyyatın ziqzaqvari artımı ilə bağlı proqnozlaşdırmışdılar. Yəni, 2020-ci ildə dünya iqtisadiyyatı necə kəskin eniş yaşamışdısa, proqnoz edilirdi ki, elə ona uyğun da artım olacaq və neftə tələbat yaranacaq. Həqiqətən də elə o cür baş verdi. Heç kəs gözləmirdi ki, neftin qiymətləri 70 dollar səviyyəsini aşacaq. Baxmayaraq ki, ilin birinci yarısında neftin orta qiyməti 60,5 dollar idi. Cari il üçün proqnoz 65 dollardır. Buna da səbəb hava şəraitinin qeyri-sabit keçməsi oldu. Yəni, qış həddindən artıq soyuq, yay isə həddindən artıq qızmar oldu və enerjiyə olan tələbat da yüksəldi. İndi sentyabr ayıdır və qiymət 74 dolları ötüb, qazın qiyməti isə 800 dolları keçib. Neftin indiki qiymətində Meksika körfəzində Amerikanın hasilatçı ştatlarında qasırğa təhlükəsi öz rolunu oynayır. Bundan öncə də "İda" qasırğasının fəsadlarının hələ də aradan qaldırılmamasıdır. Klimativ faktorlar proqnoz edilməyən faktorlardır ki, onlar öz risklərini neftin və qazın qiymətində əks etdirir.

> “
>
> *Hökumətin neftin qiyməti ilə bağlı addımı özünü sığortalamaqdan irəli gəlir*

***- Bəs, gələn il üçün büdcə sənədində neftin qiymətinin 45 dollardan nəzərdə tutulması ölkə iqtisadiyyatına nə qədər əlavə vəsaitin daxil olmasına imkan yaradacaq?***

- Gələn il büdcənin gəlirləri 26 milyard manat proqnozlaşdırılır. Onun xərc hissəsi isə 28 milyard manatdan artıqdır.

Və umumilikdə, neftin büdcədə payını götürsək, bu 52 faiz civarındadır.

***- Bu ilin sonunu neft hansı qiymətlərlə başa vuracaq? Hazırda bununla bağlı proqnoz vermək mümkündürmü?***

- Bu ilin sonunda neft 80 dollar da ola bilər. Bunun heç kəs üçün əhəmiyyəti yoxdur. Əsas orta qiymətdir, bu isə 65 dollardır. Yəni, proqnoz belədir, qiymət 65 dollar olmaya da bilər və 66-67 dollar civarında dəyişməsi də mümkündür. Bazar üçün 1-2 dolların böyük əhəmiyyəti yoxdur.

***- Gələn il üçün neftlə bağlı proqnozlar necədir? Qiymətlər necə dəyişəcək?***

- Gələn il üçün qiymət ümumilikdə, bu ilə nisbətdə daha aşağı proqnoz edilir. Proqnoz 61-62 dollar civarındadır. Gələn il bu ilə nisbətən dünya iqtisadiyatının artım tempi daha aşağı olacaq. Bu il dünya iqtisadiyyatı ötən ilə nisbətən daha yüksək templə artdı, ancaq gələn il vəziyyət belə olmayacaq. Məsələn, bu il 6 milyon barel neft hasilatının artımı gözlənilir, gələn il isə ən yaxşı halda bu göstəricinin yarısı, təxminən 3 milyon barel proqnoz edilir. Digər tərəfdən, indidən demək olmaz ki, gələn il iqlim şəraiti necə olacaq, qış, yay fəsli necə keçəcək.

Bu faktorlar, eyni zamanda, istehsalçı və istehlakçı ölkələr arasında müharibə olacaq, ya olmayacaq kimi ehtimallar bazara öz təsirini göstərə bilər. Bir daha vurğulamaq istəyirəm ki, son 5 ildə verilən proqnozlardan bir proqnoza rast gəlməmişəm ki, özünü gələn il üçün tam təsdiqləsin. Ümumilikdə, gələn il üçün proqnoz 61-62 dollar ətrafındadır və ümid edək ki, növbəti ildə də neft 65 dollar civarında olsun. Bu iqtisadiyyatı neftdən asılı olan ölkələr üçün kifayət qədər yaxşı bir göstəricidir.

***- "Lukoil" şirkətinin rəhbəri Vahid Ələkbərov "Kommersant"a müsahibəsində deyib ki, neft qiymətlərinin 100 dollardan yuxarı olması bazarı çökdürə bilər. Ümumiyyətlə, belə bir ehtimal gözləniləndirmi?***

- Neftin qiymətini bazar tənzimləyir. Burada inzibati təsirlər rol oynamır. Vahid Ələkbərov da bildirib ki, neftin 100 dollardan yuxarı olmasını istəməzdim. Həqiqətən də əgər qiymətlər sürətlə yüksələcəksə, elə həmin sürətlə də aşağı düşəcək. Necə ki, vaxtilə 2012,2013 və 2014-cü illərdə qiymət 100 dollardan yuxarı oldu və sonradan birdən 54 dollara kimi düşdü. Ona görə də ən yaxşı variant 65-70 dollardır.

✍ **Sevinc**

# Dərsliklərdə, tədris proqramlarında islahat aparmalıyıq

## Təhsil

***Təhsil Nazirliyi yanında İctimai Şuranın sədr müavini Nadir İsrafilovun hafta.aza müsahibəsi***



**Nadir İsrafilov,**
Təhsil Nazirliyi yanında İctimai Şuranın sədr müavini

***- Nadir müəllim, Azərbaycanda həm orta, həm də ali məktəblərdə tədrisin əyani formada keçirilməsi ilə bağlı qərar qəbul olunub. Sizcə, indiki şəraitdə ənənəvi tədrisə hazırıqmı?***

- Tədrisə hazır olsaq da, olmasaq da biz bu prosesə başlamalıyıq. Bu böyük çoxluğun arzusu idi. Hər kəs deyirdi ki, distant təhsil ənənəvi tədrisi əvəz edə bilmir. Distant təhsil ali məktəblər üçün məqbul sayıla bilərdi, amma xüsusilə ibtidai təhsildə bu problemlər yaradırdı. Yəni, bu xəbər çoxdan gözlənilirdi ki, əyani təhsilə keçid bərpa olunsun. O ki qaldı təhsilin başlama müddətinin 1-2 həftə gecikdirilməsinə bu da mərhələli keçidlə bağlı olan məsələdir. Bilirsiniz ki, birdən-birə məktəbləri açmaq da doğru olmazdı. Amma o demək deyil ki, biz məktəbləri açmaqla hər şey qaydasında gedəcək. Təhsil naziri də mətbuat konfransında bu məsələyə aydınlıq gətirərək bildirdi ki, ənənəvi təhsil davamlı olması epidemioloji vəziyyətdən asılı olacaq.

Məktəbləri açırıqsa, ortada müəyyən qaydalar olmalıdır, lakin nədənsə, həmin qaydaların təsdiqi gecikir. Yəqin ki, hökumətin təsdiqləyəcəyi qaydalarda bütün məsələlərə aydınlıq gətiriləcək. Ümumiyyətlə, biz yeni çağırışlara istəsək də, istəməsək də hazırlıqlı olmalıyıq. Sabah distant təhsilə də keçə bilərik, virtual məktəb layihəsinə də qayıda bilərik. Biz ənənəvi təhsilin dayanıqlı olmasını istəyiriksə, bunun əsası vaksinasiyadan keçir.

Ümumdünya Səhiyyə Təşkilatının bəyanatında birmənalı şəkildə qeyd olunurdu ki, əgər əhalinin 60-65 faizi vaksinasiya olunursa, bu risk faktorunun azalması deməkdir. Bizdə bu göstəricinin 80 faizdən artıq olduğu bildirilir. Bu zaman sual yaranır ki, biz niyə 100 faizlik vaksinasiya əldə etməyə çalışırıq. İndi cəmiyyəti narahat edən bir sıra xəbərlər yayılır. Vaksin olunmayanların əməkhaqqı kəsiləcək, müəllimlər məktəbə buraxılmayacaqlar və.s. Bu kimi manşetlər insanları narahat edir. Axı, bizdə vaksinasiya könüllüdür, hökumət bu prosesi məcburiləşdirməyib. Razıyam ki, vaksinasiya ilə bağlı maarifləndirmə işi aparaq, amma onu hökm xarakterli çağırışlarla etməyək. Bu təhsilimizə başucalığı gətirən məsələ deyil. Ümid edək ki, situasiya sabitləşəcək, əyani təhsil davam edəcək. Hamımız təhsilin keyfiyyətli olmasında maraqlıyıq və bu sahə dövlət üçün də prioritet məsələdir.

***- Bu gün əksər ölkələrdə ənənəvi təhsil bərpa olunub. Azərbaycan həm müəllimlər və şagirdlərin vaksinasiyası, həm də ənənəvi təhsilin dayanıqlı olması məsələsində hansı ölkələrin təcrübəsindən yararlana bilər?***

- Biz dünya təcrübəsini öyrənə bilərik, amma onu olduğu kimi Azərbaycanda tətbiq edə bilmərik. Bu elə bir prosesdir ki, hər ölkədə vəziyyət eyni deyil. İstənilən halda hökm xarakterli çağırışlardan çəkinməliyik.

> “Kimsə kimsəylə elmi mübahisə edəndə deyirdi ki, get aç dərsliyə bax. İndi dərsliyə etibar yoxdur

Güman edirəm ki, Nazirlər Kabinetinin təhsil müəssisələrinin fəaliyyəti ilə bağlı təsdiqləyəcəyi qaydalarda hökm xarakterli qərarlar olmayacaq. Burada bir məsələ də var ki, bütün sahələr qalıb kənarda, biz təhsilin üzərinə düşmüşük. Biz bir şeyi dərk etməliyik ki, hazırda restoranlar, iri ticarət mərkəzləri, şadlıq sarayları kütləvi şəkildə fəaliyyət göstərir və ortada potensial risk mövcuddur. Amma biz məktəblərin açılmasına tərəddüd edirik. Hər halda məktəbdə qaydalara daha ciddi əməl olunur, nəinki sadaladığım digər məkanlarda. Biz bu kimi məsələləri nəzərə almırıq, düşünürük ki, məktəb açılsa, yoluxma artacaq. Məgər yay müddətində məktəb var idi, amma yoluxma pik həddə idi. Təbii ki,bununla bağlı da ciddi təhlillər aparılmalıdır.

***- Pandemiya şəraitində ənənəvi təhsilə qayıdırıqsa, bu müddətdən daha keyfiyyətli yararlanmaq üçün tədris prosesində hansı məsələlərə xüsusi diqqət yetirilməsi lazımdır?***

- Təhsil naziri mətbuat konfransında bu məsələyə müəyyən mənada aydınlıq gətirdi. Və bildirdi ki, ənənəvi təhsilə 1-2 həftə gec başlasaq ki, bu günlər tətil günləri hesabına kompensasiya ediləcək.

Əslində təhsilin keyfiyyətini onun müddəti ilə ölçmək düzgün deyil. Biz sentyabrın 1-ni 15-i ilə əvəz etdik. Tədris ilinin son gününü də iyunun 14-nə çəkdik. Nə dəyişdi? Bir bunun təhlilini aparan varmı ki, nə qazandıq, nə itirdik? Məsələn, bu dəqiqə elə kurslar var ki, məktəbin şagirdə bir fənn üzrə 11 ildə verdiyini 1-2 aya verir. Ona görə də təhsilin keyfiyyətini müddətlə ölçmək doğru deyil. Təhsilin müddəti keyfiyyətdə heç bir rol oynamır.

Bu baxımdan biz təhsilin müddətini problemə çevirməməliyik. Sadəcə, bu müddətdə dərs proqramına peşəkarcasına yanaşan müəllim olmalıdır. Bizim dərsliklər, proqramlar üçüncü, dördüncü dərəcəli materiallarla doludur. Hansı ki, müstəqil həyatta həmin məlumatların heç bir əhəmiyyəti yoxdur. Biz ilk növbədə dərsliklərdə, tədris proqramlarında islahat aparmalıyıq. Bu proqramlar sadələşdirilməli, artıq materiallar dərsliklərdən çıxarılmalıdır. Bir vaxtlar dərslik məsələsi etalon idi. Kimsə kimsəylə elmi mübahisə edəndə deyirdi ki, get aç dərsliyə bax. İndi dərsliyə etibar yoxdur. Düzdür, son illər bu sahədə müəyyən islahatlar aparılır, ehtiyat dərsliklər hazırlanır və s. Amma bizdə hələ də konkret fənn üzrə, konkret məzmunlu proqramlara ehtiyac var.

✍ ***Sevinc***

## Müsahib

***Bəziləri iddia edir ki, guya 11 Sentyabr terror aktını müəyyən məqsədlərlə Amerika xüsusi xidmət orqanları özləri təşkil edib... Hazırda Nyu-Yorkda yaşayan siyasi analitik, keçmiş MTN əməkdaşı Ərəstun Oruclu ilə hafta.az üçün budəfəki söhbətimizdə 20-ci ildönümü tamam olan 11 Sentyabr Amerika faciəsi haqqında gerçəklər və konspiroloji fərziyyələr haqda danışdıq, həmin olayların dünyadakı son proseslərə, o cümlədən ayrıca Azərbaycan və Türkiyəyə təsirindən bəhs etdik...***



**Ərəstun Oruclu,**
keçmiş MTN əməkdaşı, politoloq

# 11 Sentyabr Azərbaycanı ABŞ-la daha da yaxınlaşdırdı...

***- Ərəstun bəy, artıq neçə ildir ABŞ-da yaşayırsınız, ötən 20 il ərzində 11 Sentyabr terror olayları haqqında hansı nəticələrə gəlmisiniz?***

- Nəinki ABŞ-da yaşadığım müddətdə, ondan əvvəl də 11 Sentyabr terror olayını daimi araşdırmışam. Həmin hadisələrlə bağlı müxtəlif rəsmi qurumların hesabatları, Senatın dinləmələri, Konqresdəki müzakirələr və s. ilə diqqətlə tanış olmuşam. Bu başdan deyim ki, əslində həmin terror aktı son dövrlərin ən irimiqyaslı terror aktı idı ki, bundan sonra hər kəs bu olayın dünyanı dəyişəcəyini deyirdi. Ümumi gedişatda heç bir şey dəyişmədi, dünya elə həmin dünyadır, əksinə, terrorçuluq bir qədər də aktivləşdi. Beynəlxalq terrorizm öz coğrafiyasını daha da genişləndirib və terrorçular bu mənada dünyanı dəyişmək iddialarına cavab verdilər...

***- Bu faciənin guya ABŞ xüsusi xidmət orqanları, yaxud Amerika “dərin dövlət”i tərəfindən Yeni Dünya Düzəni planlarını həyata keçimək məqsədilə qəsdən törədildiyi haqda fərziyyələrə münasibətiniz necədir?***

- 11 Sentyabr haqda müxtəlif konspiroloji nəzəriyyələr var. O cümlədən bəziləri iddia edir ki, guya 11 Sentyabr terror aktını müəyyən məqsədlərlə Amerika xüsusi xidmət orqanları özləri təşkil edib. Bu, antiqlobalistlərin qlobalistlərə qarşı aksiyasıdır. Yəni belə uydurma fərziyyələr çoxdur. Amerika Birləşmiş Ştatlarının dövlət idarəetmə sistemini, ölkədəki hakimiyyət bölgüsü prinsiplərini, hakimiyyətə nəzarət mexanizmlərini bilməyən kəslər yalnız belə absurd fikirlər irəli sürə bilərlər. Deyirlər ki, guya 11 Sentyabr terror aktını müəyyən məqsədlərlə Amerika xüsusi xidmət orqanları özləri törədib. Bu, absurddur. Bundan absurd bir şey də düşünmək mümkün deyil. Ən azı, ona görə ki, demokratik ölkələrdə, Qərb dövlətlərində, xüsusən də ABŞ-da hər hansı bir cinayətə məcbur edilmiş, təhrik olunmuş şəxsin ömrü boyu susacağına heç kəs təminat verə bilməz. Bu, birmənalı olaraq terror aktı idi. Bu, “əl-Qaidə”nin törətdiyi terror aktı idi. Bununla bağlı, bunu təsdiqləyən minlərlə sənədlər, faktlar var. Bütün bu spekulyasiyalar hələ Sovet İttifaqının Əfqanıstanı işğal etdiyi dövrdə terrorçu “əl-Qaidə”nin ABŞ-la əməkdaşlığından qaynaqlanır. 11 Sentyabr terroru baş verəndə artıq həmin vaxtdan, o cümlədən SSRİ-nin Əfqanıstanı tərk etməsindən 10-20 il vaxt keçmiş və “əl-Qaidə” ilə Ağ Ev, Pentaqon arasında çox kəskin münasibətlər yaranmışdı. Yəni həmin hadisələrin tarixini bilməyən insanlar müxtəlif iddialar irəli sürə bilər. Gəlin biz məsələyə həmin iddialardan doğan sualların prizmasından yanaşaq. Guya 11 Sentyabr olayları dünyanı dəyişməliydi. Baxaq görək, həmin faciə dünyanı dəyişdimi? Bayaq dediyim kimi, 2001-ci ilin sentyabrından bəri keçən 20 il ərzində ümumi gedişatda heç bir şey dəyişmədi. Həmin dünyadır, həmin düzən və qayda ilə yaşayır. Bilirsiniz, pandemiya haqda da deyirlər ki, bu uydurulub, bu virus dünyanı dəyişmək məqsədi ilə süni olaraq yaradılıb və s. Axı dünyanın inkişaf dialektikası var və onu heç kəs dəyişə bilməz. Bu, sadəcə olaraq mümkün deyil. Bu mənada bir daha təkrar edirəm, 11 Sentyabr terroru bəşəriyyət tarixində və ayrıca müasir tariximizdə ən ağır, ən miqyaslı terror aktlarından biridir. Çox təəssüf ki, məhz həmin terror aktının ardınca dünyada müxtəlif terrorçu cərəyan və qruplar bundan ruhlanıb daha da fəallaşdı. Yəni onlar düşündü ki, artıq ABŞ kimi bir dövlətə qarşı da terror aktı həyata keçirmək olar, onun Pentaqon kimi mühüm bir müdafiə qurumunun binasını da vurmaq olar. Amerikanın az qala simvolu sayılan məlum qoşa qüllələri də partlatmaq olar. Bu mənada bəli, dünya bəlkə də dəyişib. Həmin dəyişmə yaxşı istiqamətdə olmadı. Çox təəssüf ki, məhz o dövrdən başlayan terrorçuluq tendensiyaları bu gün də davam edir. Bundan sonra ABŞ-ın Əfqanıstandakı, ardınca İraqda keçirdiyi hərbi-siyasi kampaniyalar, fikrimcə, uğursuzluğa düçar oldu. Və ABŞ rəhbərliyi özü də bunu etiraf edir və buna görə də hər iki ölkədən çıxdılar. Bu, artıq başqa bir məsələdir. Bu, administrasiyaların sırf xarici siyasətdəki səhvlərinin nəticələridir...

> “Son 20 ildə dünya təkrar iki, hətta üçqütblü olubdur. Yəni SSRİ dağıldıqdan sonrakı təkqütblü dünya artıq yoxdur

***- 11 Sentyabr ayrıca Azərbaycan və Türkiyədəki proseslərə necə təsir göstərdi?***

- 11 Sentyabrın Azərbaycan və Türkiyəyə təsirindən danışsaq, onu demək olar ki, məhz bu olaylardan sonra rəsmi Bakı Vaşinqtonla daha da yaxınlaşdı. Məsələ orasındadır ki, Əfqanıstana yeritmək üçün koalisiya yaradılanda Azərbaycan da Türkiyə ilə yanaşı, həmin koalisiyanın üzvü olmaqla bərabər Əfqanıstana daşınan hərbi yüklərin öz hava məkanından keçirilməsinə də razılıq verməklə ABŞ-la strateji əməkdaşlığa başladı. Bu mənada 11 Sentyabrın müsbət təsiri oldu. Konkret Türkiyəyə gəldikdə, nə qədər ziddiyyətlər olsa da, Türkiyə ilə ABŞ ən yaxın müttəfiqlərdir. Bu, açıq-aydın görünür və belə də davam edəcəkdir, çünki müştərək maraqlar olduqca çoxdur...

***- Ərəstun bəy, Əfqanıstanda məhz 11 Sentyabrdan sonra başlanan ABŞ müdaxiləsi və son nəticədə Vaşinqtonun qoşunlarını həmin ölkədən çıxarması eyni senarinin davamıdır, yoxsa bu 20 ildəki hadisələr elə kortəbii şəkildə inkişaf edib?***

- Demək olmaz ki, son 20 ildəki hadisələr kortəbii inkişaf edib. Təbii ki, onlara həm böyük dövlətlərin, həm də transmilli korporasiyaların müdaxilələri olub. Bunlar hamısı təbii hallardır. Son 20 ildə dünya təkrar iki, hətta üçqütblü olubdur. Yəni SSRİ dağıldıqdan sonrakı təkqütblü dünya artıq yoxdur. Bunun özü də əsasən kortəbii inkişafın nəticəsidir. Çin daha da güclənib. Rusiya 2000-ci ildən bəri özünə gəlib. Və nəticədə dünya öncə dediyim kimi, üçqütblüdür. Bu mənada, əlbəttə, son 20 ildə dəyişikliklər olub. Bütövlükdə dünyadakı proseslər, onun inkişafı öz dialektik xətti üzrə gedir.

✍ ***Sultan***


# “Azercell” rekord ballı abituriyentlərimizi təbrik etdi! ®

**15 sentyabr Bilik Günü ərəfəsində ölkənin lider mobil operatoru “Azercell Telekom” bu dəfə yenicə tələbə adını qazanmış gənclərimizə yönəlik daha bir sosial təşəbbüslə çıxış edir.**




Belə ki, 2021-ci il Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilmiş qəbul imtahanları zamanı ən yüksək bal toplayan 27 abituriyent və Vətən Müharibəsində şəhid olmuş hərbçilərimizin 16 nəfər ali məktəblərə yollanan övladına onların tədris həyatında əsl yardımçıya çevriləcək hədiyyələr təqdim etdi.

Dövlət İmtahan Mərkəzi və “Zəfər” İctimai Birliyinin test imtahanlarının nəticələri üzrə təqdim edilmiş siyahıları əsasında seçilən 43 nəfər abituriyent Azercell-dən 12 ay müddətində aktiv olacaq GencOl 6 tarifinə qoşulmaq imkanı qazandı. Xatırladaq ki, GəncOl 6 tarixi çərçivəsində tələbə-abunəçi aylıq 3GB mobil internet, 300 tarifdaxili dəqiqə, Azercell-in tətbiqlərindən istifadə etmək üçün 3GB və WhatsApp proqramında pulsuz yazışma imkanı qazanır. Bundan əlavə, Respublika üzrə ən yüksək bal yığmış yeddi abituriyent və dörd şəhid övladı şirkətdən hədiyyə olaraq 64GB Samsung Galaxy planşetini də hədiyyə aldı. Müxtəlif informasiya resurslarına rahat və operativ çıxış imkanının vacib olduğu bir dövrdə həmin hədiyyələr tələbələrin əlavə bilgilərlə bağlı ehtiyaclarını qarşılamaqda yardımçı olacaq.

Qeyd edək ki, “Azercell Telekom” hər il məktəbli və tələbələr üçün zəngin məlumat mənbəyi olan müxtəlif rəqəmsal xidmətlərdən yararlanmaq məqsədilə yeni imkanlar təşkil edir, istedadlı tələbələrə təqaüd və təcrübə proqramları həyata keçirir.

44 günlük Vətən müharibəsi zamanı canlarından keçən igid şəhidlərimizin ailə üzvləri üçün şirkət tərəfindən müxtəlif sosial təşəbbüslər, peşəkar inkişaf və dil bilgilərinin artırılmasına yönəlik onlayn təlimlər keçirilməsinə dəstək verilir. Yüksək əzmkarlıqla qəbul imtahanlarına hazırlaşaraq ali məktəblərə qəbul olan istedadlı gənclərimizlə qürur duyuruq!




**■ Erməni mətbuatında Gorus-Qafan avtomobil yolunda İrandan gələn iki yük maşınının sürücüsünün Azərbaycan polisləri tərəfindən saxlanılması ilə bağlı məlumatlar yayılıb.**

Məsələ ilə bağlı Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətinin rəisi, Ehsan Zahidov bildirib ki, saxlanılan sürücülər qanunsuz yollarla Azərbaycan ərazisinə daxil olublar: ”Ermənistandan qanunsuz yollarla Azərbaycan ərazisinə keçən avtomobillər Daxili İşlər Nazirliyinin, Dövlət Gömrük Komitəsinin və Dövlət Sərhəd Xidmətinin əməkdaşları tərəfindən müəyyən edilərək saxlanılıb. Həmin avtomobillərin sürücüləri barəsində Azərbaycan Respublikasının qanunlarına uyğun müvafiq tədbirlər görüləcək”, - deyə Ehsan Zahidov vurğulayıb.



**■ Dünya və Avropa çempionu Xəyyam Səfixanov həbs olunub. APA-nın əldə etdiyi məlumata görə, X. Səfixanov narkotik maddələrin qanunsuz dövriyyəsində şübhəli bilinib.**

X. Səfixanov Sabunçu rayon Polis İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb. Axtarış zamanı onun üzərindən heroin, metafitamin və tramadol həbi aşkar edilib. Faktla bağlı Sabunçu rayon Polis İdarəsində cinayət işi başlanılıb və məhkəmə tərəfindən X. Səfixanov barəsində həbs qətimkan tədbiri seçilib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin şöbə rəisi Elşad Hacıyev faktı APA-ya təsdiqləyib.

Qeyd edək ki, X.Səfixanov universal-döyüş və digər idman növü üzrə dünya və Avropa çempionu olub.



**■ Böyük Britaniyanın “Cable.-co.uk” agentliyi yüksək sürətli internetlə bağlı dünya ölkələri üzrə statistikanı açıqlayıb.**

Qlobal İnternet Sürət Cədvəli 30 iyun 2021-ci il tarixinədək 224 ölkəni əhatə edən 12 ay ərzində 1,1 milyarddan çox sürət testi əsasında tərtib edilib. Cari ilin reytinq cədvəlində Azərbaycan 167-ci yerdə qərarlaşıb. Reytinq cədvəlinə görə, Azərbaycan internetin orta sürəti 6,63 Mbit/s olub. Nəticədə Azərbaycanın mövqeyi əvvəlki siyahı ilə müqayisədə 25 pillə geriləyib. Belə ki, 2019-cu ildə bu qurumun reytinq cədvəlində Azərbaycan 208 ölkə arasında 142-ci yerdə, 2018-ci ildə 135-ci yerdə, 2017-ci ildə isə 102-ci yerdə olub. ”Cable”ın reytinq cədvəllərinə əsasən, son illərdə Azərbaycan internetin sürəti zəifləyib.



**■ “Tədrisin açılması insan təmaslarının artmasına gətirib çıxarır”. Bunu Səhiyyə Nazirliyinin baş infeksionisti Təyyar Eyvazov “Bu gün COVID-19” mövzusunda çıxışında deyib.**

O bildirib ki, bu da yoluxma hallarının artmasına səbəb olur: “Valideynlər uşaqların şikayəti olduğu halda, baş ağrısı, temperatur olduqda onları məktəbə buraxmamalıdır. Hər şey evdən başlayır. “Delta” ştammı yüksək yoluxuculuğu ilə yanaşı, ailədaxili yoluxmalara gətirib çıxarır, yəni ailənin əksər üzvü bu virusa yoluxur”. T. Eyvazov deyib ki, uşaqlar koronavirusu yüngül keçirir: ”Onlarda ağırlaşma hallarına az rast gəlinir. Təəssüflər olsun ki, bəzi uşaqlarda yoluxmadan sonra müəyyən sindrom əmələ gəlir.



**■ “Son dövrlər keçirilən təlimlər nəticəsində Azərbaycan Ordusu böyük təcrübə qazanıb. İki ölkə arasında keçirilən təlimlər bundan sonra da davam edəcək”.**

Bunu Konyada “TurAz Şahini - 2021” birgə taktiki-uçuş təlimlərini izlədikdən sonra Azərbaycanın müdafiə naziri Zakir Həsənov deyib. Nazir bildirib ki, Azərbaycan işğal altındakı torpaqlarını azad etmək üçün başlatdığı əməliyyatlar zamanı daim Türkiyənin dəstəyini görüb: “Müharibə vaxtı Türkiyə Prezidenti, Türkiyə milli müdafiə naziri və digər yüksək vəzifəli şəxslər Azərbaycana siyasi, mənəvi və diplomatik dəstək verib. Onların bəyanatları Azərbaycanın tək olmadığını, Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu, Azərbaycan-Türkiyə qardaşlığının sarsılmazlığın bütün dünyaya göstərib.



**■ “Region özünün həssas dövrünü yaşayıb. Prosesləri yaxından izləyirik”. Bunu Türkiyənin milli müdafiə naziri Hulusi Akar “TurAz Şahini - 2021” birgə taktiki-uçuş təlimlərində keçirilən “Yüksək səviyyəli müşahidəçi günü”ndə çıxışı zamanı deyib.**

O bildirib ki, Türkiyə bütün qonşularının ərazi bütövlüyünə və suverenliyinə hörmətlə yanaşır: “Bizim hər hansı şəkildə kimsənin ərazisini ilhaq etmək kimi niyyətimiz əsla müzakirə mövzusu ola bilməz. Ancaq digər tərəfdən də quruda, dənizdə və havada heç bir şəkildə nə özümüzün, nə də dost və qardaşlarımızın haqqının, hüququnun tapdanmasına icazə verərik”. Nazirin sözlərinə görə, Türkiyə və Azərbaycanın birgə uğurlu hərbi təlimləri düşmənləri qorxuya salır, dost və qardaşları həyəcanlandırır.

# Universitetlərin tələbə yataqxanaları

## Araşdırma

*Yeni tədris ilində dərslərin ənənəvi formada bərpası bölgələrdə yaşayan tələbələr üçün ev məsələsini gündəmə gətirmiş oldu. Hazırda paytaxt Bakıda bir neçə universitetin yataqxanası mövcuddur və onlara qeydiyyat da artıq başlayıb. Yataqxanalarda həyat şəraiti kimi elə qiymətlər də bir-birindən fərqlidir. Hafta.az-ın əməkdaşı tələbə şəhərciklərinin hazırkı vəziyyəti, qiymətlər və qeydiyyatla bağlı bir sıra məsələləri araşdırmaq üçün sözügedən təhsil ocaqlarından məlumat aldı.*



### Qiymətlər və mövcud şərait



**■ Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin mətbuat xidmətinin rəhbəri Bəhruz Nəzərov bildirdi ki, universitetin yataqxanasına qeydiyyat başlanıb. Tələbə şəhərciyi 320 yerlikdir: “Əsasən əcnəbi tələbələr və yerli tələbələr üçündür.** 1 nömrənin qiyməti 100 AZN-dir. 2-3 nəfərlikdir, məbləğ aralarında bölünür. Karantin qaydalarına uyğun olaraq hazırlıqlar görülüb. Mütəmadi dezinfeksiya işləri aparılır, əlləri dezinfeksiya etmək üçün aparatlar quraşdırılıb, temperatur ölçülür”.

**■ Növbəti müsahibimiz isə Tibb Universitetinin mətbuat xidmətinin rəhbəri Günel Aslanova oldu. Günel xanımın sözlərinə görə, hazırda Tibb Universitetinin 4 yataqxanası mövcuddur.**



Hazırkı vəziyyət nəzərə alınaraq 975 tələbəni bu şəhərcikdə yerləşdirmək olar. Ümumi tutumu daha çox olsa da, pandemiya ilə bağlı tələbə sayı 975 olaraq qərarlaşdırılıb: “Azərbaycan Tibb Universitetində tələbələr üçün yataqxanalar fəaliyyət göstərir. Yataqxanalar oğlan-qız və xarici tələbələr üçün ayrı-ayrılıqda bölünüb. Şəraitə gəldikdə isə bura tamamilə yenidən qurulub, internetlə təmin olunub”.

Universitet rəsmisi onu da qeyd etdi ki, şəhərcikdə qiymətlər fərqlidir. Bu da tələbənin neçənci kursda oxumasından, hansı yataqxanada yaşamasından və neçə nəfərlik otaq istəməsindən asılı olaraq dəyişir:

“Hər bir tələbənin 1 aylıq yataqxana qiyməti orta hesabla 30-90 manata başa gəlir. Tələbənin normal istirahəti üçün bütün şərait yaradılıb. Yerləşdirilmə zamanı da ilk olaraq şəhid ailələrinə üstünlük verilir və güzəşt olunur. Yer almayan tələbə olmur. Tibb Universitetinin tələbələrinin 100%-i bizim öz yataqxanalarımızda yerlə təmin olunur”.

**■ Azərbaycan Texniki Universitetinin (AzTU) mətbuat xidmətindən isə saytımıza deyildi ki, burada tələbə şəhərciyi 1965-1970-ci illərdə inşa olunmuş 5 mərtəbəli, daş konstruksiyalı 6 binadan, həmin ərazidə tikintisi 1991-ci ildən yarımçıq qalmış 546 yerlik 2 ədəd 14 mərtəbəli yataqxanadan ibarətdir. Hazırda isə bu binalarda 1988-1990-cı**



**illərdə qaçqın və məcburi köçkün ailələri məskunlaşıb:**

“Yataqxanalarda ümumilikdə 900-dək qaçqın və məcburi köçkün ailəsi yaşayırdı. Hazırda binalarda 124 ailə qalıb. Yataqxana kompleksi tamamilə aşınıb. Binaların vəziyyəti hər hansı yaşayış standartlarına cavab vermir. Su, elektrik və qaz xətləri, habelə kanalizasiyasistemi məcburi köçkünlər tərəfindən öz məişətlərinə uyğun dəyişdirilib. Yataqxana kompleksindəki ərazidə vaxtilə mövcud olmuş idman, sağlamlıq və ictimai iaşə obyektləri, habelə ətraf yollar və yaşıllıqlar tamamilə yarasız hala düşüb. Qaçqınlar köçürüldüyü təqdirdə bina əsaslı təmir edilmədən öz təyinatı üzrə istifadə edilə bilməz”.

Qurumun əməkdaşı həmçinin onu da vurğuladı ki, hazırda müvafiq qurumlar tərəfindən universitetin yataqxanalarında məskunlaşan qaçqın və məcburi köçkünlərin köçürülmə prosesi davam edir. Köçürülmə prosesi tam yekunlaşdıqdan sonra yataqxana əsaslı şəkildə təmir olunacaq.

**■ Azərbaycan Dövlət İqtisad Universitetinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elnarə Ömərovanın da cavabı bunabənzər oldu. Universitetin yataqxanasında uzun illərdir, məcburi köçkünlər məskunlaşıb:**

“Qaçqınlar tələbə şəhərciyindən köçürülməmiş ora tələbələri yerləşdirmək mümkün deyil. Üstəlik, şərait də buna imkan vermir. Qaçqınların binadan köçü-



rülməsi tam başa çatdıqdan sonra binalar yenidən bərpa edilərək tələbələrin ixtiyarına veriləcək. Hazırda işğaldan azad edilən ərazilərdə bərpa işləri aparıldığından, məcburi köçkünlərin ora nə zaman qayıdacağı məlum deyil. Hələ ki yataqxanaların nə vaxt boşaldılacağını bilmirik. Hər bir halda universitetin yataqxanası yenidən tam təmir edilməlidir”.

**■ Tələbə yataqxanaları ilə bağlı ən ürəkaçan cavab isə Azərbaycan Dillər Universitetindən gəldi. Universitetin ictimayətlə əlaqələr şöbəsindən Cavid Zeynallı bildirdi ki, yataqxana qiyməti 20 manatdır, üstəlik hər il müxtəlif güzəştlər edilərək burada yaşayan şagirdləri sevindirirlər:**

“Azərbaycan Dillər Universitetinin yataqxanası bütün lazımı avadanlıqlarla təchiz olunub və tələbələrin yaşaması üçün




bütün zəruri imkanlar var. Yataqxanada 200 nəfərdən bir qədər artıq tələbə yerləşə bilir. Tələbə aylıq 20 manat ödəməklə universitet yataqxanasında yaşaya bilir. Şərait və qaydalar hər kəs üçün eynidir.

Universitet rəhbərliyi tələbələrə bir neçə dəfə müxtəlif təyinatlı güzəştlər edib. Məsələn, 8 mart Beynəlxalq Qadınlar Günündə bütün tələbələr ödənişdən azad edilmişdi. Əlbəttə, bu kimi güzəştlər yenə davam edəcək”. Universitetlər yataqxana qiymətlərini və şəraitini tələbələr üşün uyğun hesab edirlər. Həmçinin tələbə şəhərciklərində məskunlaşmaq istəyən tələbələr aylıq, azı, 30-40 manatlarından keçməli olacaqlar.

✍ *Banu*

# Maska taxmamağa görə cərimələr silinə bilərmi

## Sual



**Son günlər sosial şəbəkələrdə karantin qaydaları ilə bağlı cərimə olunan vətəndaşların yumşaldılmalardan sonra bəzi cəzaları sildirə bilmələri ilə əlaqədar məlumatlar yayılır. Məlumata əsasən vətəndaş əgər açıq havada maska taxmadığına görə cərimə olunubmuşsa, indi bu cəriməni sildirə bilər.**

Hafta.az-ın əməkdaşı yayılan söz-söhbətin doğruluq payını araşdırmaq məqsədilə mütəxəssisə müraciət etdi.

**■ Məsələ ilə bağlı saytımıza açıqlama verən vəkil Turan Abdullazadə bildirdi ki, Azərbaycan Respublikasının Konstitusiyasının 71-ci maddəsini n VIII bəndinə əsasən heç kəs törədildiyi zaman hüquq pozuntusu sayılmayan əmələ görə məsuliyyət daşımır.**

Yəni, hüquq pozuntusu törədildikdən sonra yeni qanunla bu cür hərəkətlərə görə məsuliyyət aradan qaldırılmışsa və ya yüngülləşdirilmişsə, yeni qanun tətbiq edilir:

“Konstitusiyamızın 149-cu maddəsinin VII bəndinə əsasən fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini yaxşılaşdıran, hüquq məsuliyyətini aradan qaldıran və ya yüngülləşdirən normativ hüquqi aktların qüvvəsi geriyə şamil edilir. Başqa normativ hüquqi aktların qüvvəsi geriyə şamil edilmir. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 11.2-ci maddəsinə əsasən İnzibati xətalara görə məsuliyyəti yüngülləşdirən və ya onu aradan qaldıran normativ hüquqi aktların geriyə qüvvəsi vardır, yəni həmin aktlar onların qüvvəyə mindiyi vaxtadək törədilmiş, həmçinin inzibati tənbeh tətbiq etmə haqqında qərarı tam icra olunmamış xətalara da şamil edilir”.

Vəkilin sözlərinə görə, vətəndaş aşağıdakı hallarda cərimənin silinməsini xahiş edə bilər:

“Qeyd olunan normaların məzmununa görə əvvəllər inzibati xəta törətmiş şəxslərin əməli artıq inzibati xəta hesab olunmursa və həmin inzibati xəta ləğv olunmuşdursa, vətəndaş əməli yüngülləşdirən qanunun geriyə qüvvəsi əsası ilə protokol tərtib etmiş və cərimə yazmış orqana yazılı ərizə ilə müraciət edərək inzibati xəta haqqında protokolun ləğvi və cərimənin silinməsini xahiş edə bilər. Əgər müvafiq yerli icra hakimiyyəti orqanı inzibati xəta haqqında protokolu ləğv edib cəriməni silməzsə vətəndaşın inzibati xətanın baş verdiyi yer üzrə məhkəməyə müraciət etmək hüququ vardır. Vətəndaşlara məsləhət görülür ki, əvvəlcə cəriməni yazan orqana, daha sonra müvafiq məhkəməyə yazılı qaydada müraciət etsinlər. Bundan əlavə qeyd etmək istərdim ki, qanunvericiliyin tələbinə əsasən inzibati xətalara görə məsuliyyət müəyyən edən və ya məsuliyyəti gücləndirən normativ hüquqi aktların geriyə qüvvəsi yoxdur. Yalnız vətəndaşın vəziyyətini yüngülləşdirən normativ hüquqi aktların geriyə qüvvəsi vardır. Məsələn, açıq havada maska cərimәsini qeyd olunan hallarla bağlı misal çəkmək olar. Artıq açıq havada maska cəriməsi ləğv olunduğu və qanunvericiliyə əsasən yüngülləşdirici qanunun geriyə qüvvəsi olduğu üçün vətəndaşın cərimənin silinməsi üçün müraciət edərək müsbət nəticə əldə etmək imkanları vardır”.

✍ *Banu*


# “Azercellin” rəqəmsal həlləri ilə yeni tədris ilinə hazırlıq daha rahat oldu ®




**“Azercell” yeni dərs ilinin başlanması münasibəti ilə öz istifadəçiləri üçün “Məktəbə qayıdış” adlı kampaniyasını təqdim edir! Kampaniya çərçivəsində sentyabr ayı ərzində Azercell abunəçiləri “Bookmate” elektron kitabxana tətbiqi və “Busuu” məşhur dil öyrənmə proqramından daha əlverişli şərtlərlə istifadə edə biləcəklər.**

Ən əsas üstünlüklərdən biri ondan ibarətdir ki, xidmətə yeni qoşulan mütaliəsevərlər və dil biliklərini inkişaf etdirmək istəyən abunəçilər ilk 7 gün ərzində tətbiqdən pulsuz istifadə imkanı əldə edir. Pandemiya dövründə kitabxanaların bağlı və ictimai yerlərdə yoluxma riskinin yüksək olduğu bir dönəmdə kitablara olan tələbatı ödəmək üçün “Bookmate” ən ideal vasitədir. ”Bookmate” tətbiqi iki milyondan çox kitabı rahatlıqla əldə etməyə kömək edir. Hər bir istifadəçi bu tətbiqdə öz zövqünə uyğun müasir nəsr, qeyri-bədii ədəbiyyat, klassik və dedektiv janra və yaxud uşaq ədəbiyyatına dair kitablar tapa bilər.

Məkandan və cihazdan asılı olmayaraq, hətta oflayn rejimdə belə tətbiq vasitəsilə kitabları oxumaqla yanaşı, həm də dinləmək mümkündür ki, bu da “Bookmate” xidmətinin üstünlüklərindən biridir. Bundan əlavə, tətbiqdə müəyyən müddətdə nə qədər kitab oxuyacağını planlaşdırmağı xoşlayan istifadəçilər üçün ”Bu ilin məqsədləri” funksiyası da aktivdir. Bu funksiya mütaliəsevərləri daha çox kitab oxumaga sövq edəcək və dostlarıyla gözəl rəqabətə səbəb olacaq. Tətbiqdə azərbaycan, rus, ingilis və bundan əlavə 13 dildə ədəbiyyat seçimi imkanı təqdim edilir. Bookmate cəmiyyətinə qoşulmaqla, həm də öz düşüncələrinizi 1 milyondan çox abunəçi ilə bölüşün.

Onu da nəzərinizə çatdırırıq ki, xidmətə Azercell abunəçisi kimi qoşulduqda ayda 7.99 AZN deyil, cəmi 3.50 AZN ödəməklə tətbiqdən faydalanmaq mümkündür. Odur ki, daim yenilənən zəngin kitab kataloqundan ibarət mobil kitabxananızı yaradın. Həftəlik abunə üçün *500#-YES, aylıq abunə üçün isə *533#YES yığaraq elə indi Bookmate tətbiqinə qoşulun. Sevdiyiniz kitabları həm oxuyun, həm də dinləyin. Xidmətə müxtəlif platformalar - Azercell-in rəsmi saytı, “Kabinetim” tətbiqi, “ABB Mobile”, “Umico” mobil əlavələr üzərindən qoşulmaq mümkündür.

Kampaniya çərçivəsində təqdim olunan ikinci xidməti - milyonlarla abunəçisi olan Busuu proqramını digərlərindən fərqləndirən əsas cəhəti real vaxt rejimində xarici dili öyrənməyi əlçatan etməsidir. Tətbiq üzərindən dərslərə başlamazdan öncə test vasitəsilə hər bir istifadəçinin dil bilmə səviyyəsi qiymətləndirilir. Testin nəticələrinə əsasən abunəçilər üçün fərdi təlim planı və dərs cədvəli tərtib edilir. Busuu istifadəçilərinə A1, A2, B1, B2 səviyyələri üzrə ingilis dilini öyrənmək və ya istiqamətdən asılı olaraq işgüzar, ümumi və yaxud səyahət üçün ingilis dilini seçmək imkanı da təqdim edilir. Hər dərsin sonunda abunəçilərin yerinə yetirdiyi tapşırıqlar yoxlanılır və qiymətləndirilir.

Busuu tətbiqindəki “İcma” bölməsindən ümumi maraq dairəsinə görə dil daşıyıcısı olan həmsöhbətlər tapıb onlarla həm ünsiyyət qura, həm də maraqlandığınız sualların cavabını ala bilərsiniz. Önəmli məqamlardan biri isə kursu bitirənlərə dil biliyi səviyyəsini təsdiq edən beynəlxalq “McGraw-Hill” sertifikatının verilməsidir.

App Store və Play Market üzərindən Busuu tətbiqinə aylıq 20 AZN deyil, cəmi 3 AZN ödəməklə abunə olun, dünyanın ən çox danışılan 12 dilini (ingilis, rus, fransız, ispan, italyan, alman, portuqal, polyak, yapon, çin, türk və ərəb) rahatlıqla öyrənin. Xidmətə qoşulmaq üçün *969#-YES yığın, öyrənmə planınızı seçin, dilinizi zənginləşdirərək nailiyyətlərinizi izləyin.

Azercell yeni tədris ilinə hazırlaşan abunəçilərini bu imkanlardan yararlanmağa dəvət edir və hər kəsə uğurlar arzulayır.



# “Bakcell” abunəçiləri üçün Qarabağ Dirçəliş Fonduna SMS-lə ianə etmək imkanı ®

**“Bakcell” abunəçiləri üçün Qarabağ Dirçəliş Fonduna SMS vasitəsilə ianə etmək imkanı yaradılıb.**




Azərbaycanın işğaldan azad olunmuş ərazilərində bərpa və yenidənqurma işlərinin həyata keçirilməsinə dəstək göstərmək istəyən abunəçilər öz mobil telefonlarından “8112” qısa nömrəsinə 1, 3, 5, 10, 20, 50 rəqəmlərini yazmaqla SMS göndərərək müvafiq olaraq, 1 AZN, 3 AZN, 5 AZN, 10 AZN, 20 AZN və 50 AZN məbləğində ianə edə bilərlər.

Bakcell nömrələrindən SMS-lərin göndərilməsi üçün abunəçilərdən xidmət haqqı tutulmur! Xatırladaq ki, bu ilin əvvəlində Bakcell şirkəti Qarabağ Dirçəliş Fonduna 1.4 milyon manat məbləğində vəsait köçürüb. Bakcell şirkətinin də daxil olduğu “NEQSOL Holding”in tərkibində olan şirkətlər tərəfindən bu fonda ümumilikdə ianə edilmiş məbləğ 2 milyon AZN təşkil edib.

Qarabağ Dirçəliş Fondu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 4 yanvar 2021-ci il tarixli fərmanı ilə yaradılıb. Fərmana əsasən, Qarabağ Dirçəliş Fondu Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyi göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişafını təmin edən, eləcə də ölkə daxilində və ölkə xaricində zəruri təşviqat işlərini həyata keçirən publik hüquqi şəxsdir. (<https://qdf.gov.az/>)

Qarabağ Dirçəliş Fonduna digər platformalar vasitəsilə də ianə etmək mümkündür. Ətraflı: (<https://qdf.gov.az/iane-et/>)



# “Nar” ADAMUN Gənclər Forumunun keçirilməsinə dəstək oldu ®

**Gənclərin bilik və bacarıqlarının artırılmasına xüsusi önəm verən “Nar” ADA BMT Modeli Klubunun (ADAMUN) təşkilatçılığı ilə keçirilən Gənclər Forumuna dəstək oldu.**




Forumun məqsədi gənclərin üzləşdikləri problemlərin mütəxəssislər tərəfindən işıqlandırılması, gənclərlə birlikdə müzakirə və təhlilinin həyata keçirilməsi, eləcə də gənclərin bu problemləri həll etməyə yönəlmiş təkliflərinin irəli sürülməsində birbaşa iştirakının təmin olunmasıdır. Qeyd edək ki, 3 gün davam edən forumda gənclər komandalara bölünərək, müxtəlif layihə ideyaları üzərində araşdırma və müzakirə apardı, layihə təkliflərini hazırladı və təqdimatını etdilər. Təqdimatların sonunda ən yüksək nəticə göstərmiş 3 layihə və müəllif komandalar mükafatlandırıldı. Qeyd edək ki, ADA BMT Modeli klubu (ADAMUN) 2012-ci ildən fəaliyyət göstərir və ölkə daxilində minlərlə gəncin inkişafına töhfə verib.

# Zeytun turşusu - faydası və zərərləri

## Menyu

*Zeytun qədimdən insanların qida rasionuna daxildir. Onun tərkibində olan xeyirli maddələr sümüklərin və dişlərin vəziyyətinə müsbət təsir edir, immun sistemini möhkəmləndirir. Bufaydalı bitkidən əsasən səhər yeməklərində istifadə olunur. Bundan başqa zeytun yağı və turşusu istehlakçıların sevimli məhsulları sırasındadır. Hafta.az-ın "Menyu" rubrikasının bu günkü mövzusu zeytun turşusu ilə bağlıdır.*



**■ Mövzu ilə bağlı hafta.az-a danışan qida mütəxəssisi Məhsəti Hüseynova söylədi ki, zeytunun tərkibi nadir görülən "pp" vitamini və "c" vitamini, omeqa 6 yağ turşuları ilə boldur.** Zeytun mineral və vitamin tərkibi sayəsində orqanizmə olduqca böyük faydalar verir. Belə ki o, ürək-damar sistemi, beyin, mədə-bağırsaq, qaraciyər üçün əvəzsiz xeyirlər bəxş edir. Qəbizlikdən əziyyət çəkənlərə zeytun istifadəsi tövsiyə edilir.

Həmçinin ekspert zeytun turşusunun da zeytun qədər faydalı olduğunu vurğuladı. Əlavə etdi ki, ev şəraitində zeytun turşusu qoymaq heç də çətin deyil: "Diqqət etmək lazımdır ki, turşu düzgün şəkildə qoyulsun. Zeytun turşusu hazırlamaq bir az zəhmət tələb edir. Zeytunlar toplandıqdan sonra çürüklərindən arındırılır. Ardınca isə yaxşı yuyulur. Yuyulmaya ciddi diqqət göstərilməlidir. Çünki paytaxtda yol kənarlarında zeytunlar maşınların tüstüsünə və həddindən artıq tozlanmaya məruz qalırlar. Zeytunları cızma yaxud da əzmə üsulu ilə əzmək lazımdır.



**Məhsəti Hüseynova,**
qida mütəxəssisi

*Zeytun turşusu yeganə turşulardandır ki, ona əlavə qatqı maddələri vurmağa ehtiyac yoxdur*

Əgər cızma ediriksə bunu xüsusi dəmirlər yaxud nazik uclu bıçaq ilə həyata keçiririk. Bu zaman zeytun hər iki tərəfdən cızılıb şüşə qablara yığılır. Çox xırda zeytunları ət taxtası və yaxud başqa bir şeylə əzirik. Əsas məqsəd zeytunun içindəki acılığı çıxarmaq üçün suya qoyanda daha rahat olmasıdır. Bütöv halda acılıq tam çıxa bilməyəcək. 4 gün suda saxlanmış zeytunun acısı tamamilə çıxmış olur. 5-6 dəfə suyu dəyişdirilir. 3 kiloqram zeytunun üzərinə 3-4 yemək qaşığı duz əlavə edilir. Qaya duzu olsa daha faydalıdır. Daha sonra üzərində bir limon sıxılaraq 100 qr limon duzu əlavə edilməlidir. Əgər limon duzu yoxdursa, o zaman limonun miqdarını artırmaq olar. 2-3 həftə gözlədikdən sonra zeytunlar yeyilməyə hazırdır".

M.Hüseynova mağazalarda açıq satılan zeytunların əsil təhlükə mənbəyi olmasından da söz açdı: "Bəzən mağazalarda açıq şəkildə satılan zeytun turşusu ilə qarşılaşırıq. Bu zaman məhsulun saxlanma şəraitinə fikir verməliyik. Əks halda qida bütün faydalılığını itirərək zərərli məhsula çevrilir. Yaxşı olardı ki, istehlakçılar açıq şəraitdə satılan zeytun turşusundan imtina etsinlər.Böyük marketlərdə açıq satılan zeytunlar soyuducuda digər məhsullarla birlikdə saxlanılır. Bu da məhsulun keyfiyyətinə zərər verir. Ona görə də yaxşı olardı ki, kip qablarda satılan məhsullara üstünlük verilsin".

Son olaraq qida mütəxəssisi hazır və qablaşdırılmış formada satılan zeytun turşusunun keyfiyyətinə də toxundu: "Zeytun turşusu yeganə turşulardandır ki, ona əlavə qatqı maddələri vurmağa ehtiyac yoxdur. Marketdə şüşə qablarda satılan turşular da keyfiyyət baxımından heç də evdə hazırlanandan geri qalmır".

✍ Banu

## HƏFTƏ REYTİNQ

### Həftənin TƏYİNATI



Prezident İlham Əliyevin sərəncamı ilə Cəlilabad və Şəmkir rayonlarına yeni icra başçıları təyin edilib. Cəlilabad rayonuna icra başçısı təyin edilən 1963-cü il təvəllüdlü Rafiq Cəlilov bu təyinata qədər İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəis müavini vəzifəsində işləyib. O, Prezidentin sərəncamı ilə 2020-ci il 13 may tarixində bu vəzifəyə təyin edilib. Şəmkir rayonuna təyin edilmiş icra başçısı Rəşad Tağıyev isə 1981-ci ildə Neftçala rayonunda anadan olub. 2013-2015-ci illərdə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin İnsan resursları sektorunun müdiri, 2015-2018-ci illərdə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini vəzifələrində çalışıb. Təhsil nazirinin 28 dekabr 2018-ci il tarixli əmrinə əsasən, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri vəzifəsinə təyin edilib.

### Həftənin MƏRHUMU



Koronavirusdan əziyyət çəkən əməkdar artist Yaqub Zurufçu vəfat edib. Bu barədə"Yeni Klinika"dan məlumat verilib. Bildirilib ki, həkimlərin səyinə baxmayaraq, koronavirusa yoluxan Əməkdar artist dünyasını dəyişib. Qeyd edək ki, Yaqub Zurufçu 1956-cı ildə aprelin 8-də Təbriz şəhərində anadan olub. Mərhum sənətçi 2009-cu ildə Əməkdar artist adına layiq görülmüşdü. Allah rəhmət eləsin!

### Həftənin TƏCRİDİ



Rusiya Prezidenti Vladimir Putin özünütəcrid rejiminə keçib. Bu barədə məlumatı Kreml yayıb. Bildirilir ki, Putinin ətrafında koronavirusa yoluxma halları aşkar olunub və bu səbəbdən o, özünü təcrid etmək qərarına gəlib. Bununla yanaşı, qeyd olunur ki, V. Putin karantində olduğundan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının və Şanxay Əməkdaşlıq Təşkilatının zirvə görüşlərinə videoformatda qatılacaq. Putinin karantində nə qədər qalacağı barədə hələ məlumat verilməyib. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskovun sözlərinə görə, Vladimir Putin özünü yaxşı hiss edir.

### Həftənin PREZİDENTİ



Çexiya Prezidenti Miloş Zeman xəstəxanaya yerləşdirilib. Bu barədə məlumatı "News.ru" yayıb. Bildirilir ki, Praqada xəstəxanaya yerləşdirilən Zemanı həyat yoldaşı İvana müşayiət edib. Bununla belə, Prezidentin xəstəxanaya yerləşdirilməsi səbəbi naməlum olaraq qalır. Qeyd edək ki, 76 yaşlı M. Zeman şəkərli diabet və ayaqlarının nevropotiyasından əziyyət çəkir. Bu səbəbdən o, bir müddət əlil arabasından istifadə etməli olub. O bununla yanaşı, zəif eşidir və qan təzyiqi aşağıdır.

### Həftənin KORONAVİRUS XƏSTƏSİ



Müğənni Səyyad Əlizadə koronavirusa yoluxub. Bu barədə aparıcı, prodüser Tarix Əliyev öz instaqram hesabında məlumat verib. O bildirib ki, müğənni artıq Zığda yerləşən modul tipli xəstəxanaya yerləşdirilib: "Mənə bu haqda Səyyad Əlizadənin kürəkəni məlumat verdi. Koronavirusdan çox pis əziyyət çəkir. Artıq xəstəxanaya aparıblar".

### Həftənin TƏZYİQLİSİ



"Başa düşürsünüz, mən hər şeydən çox özümü düşünürəm, çünki hər gün bu yolla (Gorus-Qafan yolunun Azərbaycan ərazisindən keçən hissəsi - red.) hərəkət edəndə qarşımda silahlı türk görürəm". Bunu Zəngəzur vilayətinin qubernatoru Melikset Poqosyan Azərbaycanın Qubadlı rayonunun Eyvazlı kəndi yaxınlığında, Gorus-Qafan yolu üzərində qurulmuş sərhəd-polis postu barədə danışarkən deyib. "Üç nəsillə döyüşmüş bir şəxs üçün hər gün türk görməkdən pis heç nə yoxdur. Təzyiqim qalxır, mənim halım daha pisdir", - deyə Poqosyan bildirib.

✍ Azad Əliyev




## "Nar" abunəçiləri "Qarabağ Dirçəliş Fondu"na ianə edə bilərlər ®

**İşğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması istiqamətində görüləcək tədbirlərə dəstək olmaq istəyən "Nar" abunəçiləri üçün "Qarabağ Dirçəliş Fondu"na balanslarından birbaşa ianə etmək imkanı yaradılıb.**

Abunəçilər 1, 3, 5, 10, 20 və 50 AZN məbləğlərindən birini seçməklə ianə etmək istədikləri məbləğin müvafiq rəqəmini "8112" qısa nömrəsinə SMS göndərə bilərlər. SMS göndərildikdən dərhal sonra istifadəçiyə cavab olaraq ödənişin statusu ilə bağlı məlumat göndəriləcək.

Qeyd edək ki, balansdan yalnız ianə olunan məbləğ çıxılacaq və göndərilən hər SMS ödənişsizdir. Hər bir abunəçi bir neçə dəfə fərqli məbləğdə ianə edə bilər. Daha ətraflı məlumatı <https://www.nar.az/qarabag-dirchelish-fonduna-destek/> rəsmi səhifəsindən əldə edə bilərsiniz. "Qarabağ Dirçəliş Fondu" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 4 yanvar 2021-ci il tarixli fərmanı ilə yaradılıb. Fərmana əsasən, "Qarabağ Dirçəliş Fondu" Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyi göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişafını təmin edən, eləcə də ölkə daxilində və ölkə xaricində zəruri təşviqat işlərini həyata keçirən publik hüquqi şəxsdir. (<https://qdf.gov.az/>)

Qeyd edək ki, "Qarabağ Dirçəliş Fonduna" digər platformalar vasitəsilə də ianə etmək mümkündür. Ətraflı: <https://qdf.gov.az/iane-et/>.

## "Bakcell" Azərbaycanın ən sürətli mobil şəbəkəsi elan olundu ®




**Mobil və genişzolaqlı şəbəkələrin intellektual təhlili, mobil tətbiqetmələrin və texnologiyaların sınaqdan keçirilməsi üzrə dünya lideri olan Ookla® ən yüksək mobil şəbəkə sürətini müəyyən etmək üçün özünün Speedtest mobil tətbiqetməsi vasitəsilə Azərbaycanın bütün mobil operatorlarının şəbəkələrini test edib.**

68 mindən çox istifadəçinin iştirak etdiyi testin nəticəsinə görə bu ilin birinci və ikinci rübü ərzində Bakcell ən yaxşı nəticələri göstərib. "Bakcell"in mobil şəbəkəsi ən yüksək yükləmə (download) və ötürmə (upload) sürəti nümayiş etdirib. "Biz bu mükafata layiq görüldüyümüz üçün qürur duyuruq. Bu, abunəçilərimizi ən üstün mobil şəbəkə və ən yüksək keyfiyyətli müştəri təcrübəsi ilə təmin etmək üçün göstərdiyimiz səylərə müstəqil təşkilatdan verilən yüksək qiymətdir. Abunəçilərin mobil şəbəkəyə daha çox ehtiyac duyduğu çətin pandemiya dövründə bu mükafatın əhəmiyyəti daha da artır. Bu müddət ərzində biz Bakcell abunəçilərinə kommunikasiya, iş və əyləncə üçün daha geniş imkanlar açmaq üçün əlimizdən gələni etdik. Fəaliyyətimizin uğurlu nəticəsi olan bu mükafat bizə abunəçilərimizin mobil rabitə xidmətlərinə olan tələblərini tam həcmdə ödəmək naminə daha çox işləmək üçün əlavə motivasiya verir", deyə Bakcell şirkətinin baş icraçı direktoru Rainer Rathgeber bildirib.

Qeyd edək ki, 2018-2019-cu illərdə Ookla şirkəti Bakcell şəbəkəsini 3 dəfə ardıcıl olaraq "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adına layiq görüb. Bu gün Bakcell şəbəkəsi 8700-dən çox baza stansiya sayəsində Azərbaycan əhalisinin 99.9%-ni, ölkə ərazisinin isə 91.7%-ni əhatə edir. "Ookla tərəfindən təqdim olunan "Speedtest mükafatı" yalnız bazarda ən üstün internet göstəriciləri və əhatə dairəsinə malik olan mobil operatorlara verilir. Biz "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" mükafatını Bakcell şirkətinə böyük məmnuniyyətlə təqdim edirik.

Bu mükafat şirkətin 2021-ci ilin I və II rübləri ərzində göstərdiyi müstəsna nəticələrin təsdiqidir. Bu yüksək nəticələr abunəçilər tərəfindən Speedtest proqramı vasitəsilə edilən sınaqların ciddi şəkildə təhlili nəticəsində əldə olunub", deyə Ookla şirkətinin baş icraçı direktoru Doug Suttles bildirib.

Ətraflı məlumat burada:
<https://www.speedtest.net/awards/azerbaijan/2021/?award_type=carrier&time_period=q1-q2> Ookla® mobil və genişzolaqlı şəbəkələrin intellektual təhlili, mobil tətbiqetmələrin və texnologiyaların sınaqdan keçirilməsi üzrə dünya lideridir. "Ookla"nın aparıcı şəbəkə sınaqları platforması olan Speedtest® proqramı hər gün bütün dünyanın şəbəkələrinin fəaliyyəti və keyfiyyətinə dair milyonlarla ölçmələrin nəticələrini emal edir.

* "Ookla"nın 2021-ci ilin 1-ci və 2-ci rübləri üzrə Speedtest Intelligence® məlumatlarının təhlilinə əsasən, Ookla ticarət nişanları lisenziya və müvafiq icazə əsasında istifadə olunur.

## GÜNÜN FOTOSU



Rus desantı Qərb-2021 hərbi təlimlərində...

## Dərsliklərdə, tədris proqramlarında islahat aparmalıyıq

**Nadir İsrafilov,**
Təhsil Nazirliyi yanında İctimai Şuranın sədr müavini

Kimsə kimsəylə elmi mübahisə edəndə deyirdi ki, get aç dərsliyə bax. İndi dərsliyə etibar yoxdur.

▸▸ Səh. 6

## STATİSTİKA



■ Çində mobil ödəmələr bazarının ümumi dəyəri 5,5 trilyon dollara bərabərdir. Bu göstərici ABŞ-dakından 50 dəfə çoxdur.

■ ABŞ-da insanların yalnız 5 faizi sosial şəbəkələrdə yayılan xəbərlərə inanır.

■ ABŞ-da əhalinin 16 faizi xəbər oxumaq üçün ödəniş edir. Xüsusilə də gənclər. Hazırda Financial Times-in 900 min ödəyicisi var.

■ Kriptovalyuta olan bitkoinin 40 faizi cəi min adama məxsusdur.



▸▸ Səh. 7

## Universitetlərin tələbə yataqxanaları